QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 103 (5334) 10 **iyun** 2017-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiymәti 40 qəpik**

# Azərbaycan Avropanın enerji xəritəsini yenidən hazırlayan güclü dövlətdir

*Prezident İlham Əliyev: "Biz Xəzər dənizi, Qafqaz və Avropanın yeni geniş regional əməkdaşlıq formatını yaradacağıq"*

Səh 3



Rəcəb Tayyib Ərdoğan Prezident İlham Əliyevə zəng edib



2

Qubada "Soyqırımı memorial kompleksi" ilə bağlı yaradılan komissiyanın iclası olub



4

Bakıda "Dayanıqlı inkişaf məqsədləri: qadınlar və inkişaf" mövzusunda konfrans keçirilib



5

Yeni Azərbaycan Partiyası Qaradağ rayon təşkilatının konfransı keçirilib



6

Azərbaycan ilə Pakistan arasında təhlükəsizlik və müdafiə sahəsində əməkdaşlıq məsələləri müzakirə edilib



8

Turizmin inkişafı ölkə iqtisadiyyatına böyük gəlir gətirir



10

13

Ermənistan yeni etiraz dalğaları mərhələsində



2

ABŞ Konqresinin üzvü: Azərbaycan etnik cəhətdən multikultural ölkədir



16

"Mançester Yunayted" İbrahimoviçlə müqavilə uzatmaqdan imtina etdi!



# Rəcəb Tayyib Ərdoğan Prezident İlham Əliyevə zəng edib



İyunun 9-da Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidenti İlham Əliyevə telefonla zəng edib. Prezidentin Mətbuat Xidmətindən Trend-ə verilən məlumata görə, Türkiyə Prezidenti Azərbaycanın energetika naziri Natiq Əliyevin vəfatı ilə bağlı Prezident İlham Əliyevə və mərhumun yaxınlarına dərin hüznlə başsağlığı verib.

Prezident İlham Əliyev başsağlığına görə minnətdarlığını bildirib. Dövlət başçıları Natiq Əliyevin Türkiyə-Azərbaycan əlaqələrinin inkişafında mühüm rol oynadığını qeyd edib, onun Azərbaycanın enerji siyasətinin icrasında, habelə Bakı-Tbilisi-Ceyhan, TANAP layihələrinin həyata keçirilməsində xidmətlərini yüksək qiymətləndiriblər. Telefon söhbəti zamanı Türkiyə-Azərbaycan əlaqələrinin müxtəlif aspektləri müzakirə olunub, ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin daha da möhkəmləndirilməsi məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

* * *

Azərbaycan Prezidenti İlham Əliyev Böyük Britaniya və Şimali İrlandiyanın Kraliçası II Elizabetə təbrik məktubu ünvanlayıb. Təbrikdə deyilir: "Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının milli bayramı - Təvəllüd Gününüz münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirməkdən məmnunluq duyuram. Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, Birləşmiş Krallığın dost xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm".

* * *

Makedoniya Prezidenti George İvanov Azərbaycan Prezidenti İlham Əliyevə təbrik məktubu göndərib. Məktubda deyilir: "Hörmətli cənab Prezident. Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə Sizə Makedoniya Respublikasının vətəndaşları adından və şəxsən öz adımdan səmimi təbriklərimi çatdırmaqdan xüsusi məmnunluq duyuram. Ölkənizin daha da firavanlaşmasını, vətəndaşlarınızın rifahının yüksəlməsini səmimi qəlbdən arzu edirəm. Bu xoş fürsətdən istifadə edərək, Makedoniya Respublikası ilə Azərbaycan Respublikası arasında yüksək səviyyəli dostluq əlaqələrindən məmnunluğumu ifadə etmək istəyirəm.

Ən yüksək səviyyədə siyasi dialoq ölkələrimizin gələcək inkişafının və əməkdaşlığının xüsusən iqtisadiyyat, enerji, mədəniyyət, elm və təhsil kimi qarşılıqlı maraq doğuran sahələrdə dərinləşməsini təmin edən əsas amillərdir. Əminəm ki, əməkdaşlığımız və əldə olunmuş siyasi əlaqələrimiz qarşıdan gələn dövrdə birgə səylərimizlə daha sürətlə inkişaf edəcəkdir. Cənab Prezident, Sizə gələcək illərdə də uğurlu fəaliyyət, şəxsi həyatınızda xoşbəxtlik və cansağlığı arzulayıram. Xahiş edirəm, ən yüksək ehtiramımı qəbul edin".

# ABŞ Konqresinin üzvü: Azərbaycan etnik cəhətdən multikultural ölkədir

***ABŞ Konqresinin Nümayəndələr Palatasının respublikaçı üzvü, Azərbaycan üzrə İşçi qrupun üzvü, İllinoys ştatını təmsil edən Rendi Haltqren Azərbaycanın milli bayramı - Respublika Gününün 99-cu ildönümü münasibətilə bəyanatla çıxış edib.***



Konqres üzvü bəyanatında Azərbaycanın 1918-ci il mayın 28-də müsəlman dünyasında ilk demokratik parlamentli respublika qurduğunu bildirib. R.Haltqren həmin zamandan etibarən, xüsusilə son 25 ildə ABŞ-ın Azərbaycanla və Azərbaycan xalqı ilə əlaqələri genişləndirdiyi və gücləndirdiyini qeyd edib.

Bəyanatda Konqres üzvü müsəlman dövləti olmasına baxmayaraq xristian, yəhudi və digər dini icmaların birgə yaşadığı Azərbaycanın etnik cəhətdən multikultural bir ölkə olduğunu vurğulayıb. Habelə Azərbaycanın Xəzər regionunda enerji bazarlarında aparıcı rol oynadığını bildirib. Sonda ABŞ-ın Azərbaycanla iqtisadi və təhlükəsizlik məsələləri sahəsində əməkdaşlığı və tərəfdaşlığı gücləndirdiyini qeyd edən R.Haltqren Azərbaycanın ABŞ-la birgə terrorçuluğa qarşı mübarizə səylərinin yüksək qiymətləndirildiyini vurğulayıb.

## Natiq Ağaəmi oğlu Əliyev



Azərbaycan ictimaiyyətinə ağır itki üz vermişdir. Azərbaycan Respublikasının energetika naziri Natiq Ağaəmi oğlu Əliyev 2017-ci il iyunun 9-da ömrünün 70-ci ilində vəfat etmişdir.

Natiq Əliyev 1947-ci il noyabr ayının 23-də Bakı şəhərində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra o, 1965-1970-ci illərdə Azərbaycan Neft və Kimya İnstitutunda dağ mühəndis-geoloqu ixtisası üzrə ali təhsil almışdır. Natiq Əliyev 1971-1974-cü illərdə Azərbaycan Respublikası Elmlər Akademiyasının Geologiya İnstitutunun aspiranturasında oxumuş və 1975-ci ildə geologiya-mineralogiya elmləri namizədi, 2008-ci ildə isə iqtisad elmləri doktoru alimlik dərəcələrini almışdır.

Əmək fəaliyyətinə 1970-ci ildən etibarən "Xəzərdənizneft-qazsənaye" İstehsalat Birliyinin "Azərdənizneftkəşfiyyat" trestində texnik-geoloq kimi başlayan Natiq Əliyev 1974-1976-cı illərdə Azərbaycan Respublikası Elmlər Akademiyasının Geologiya İnstitutunun kiçik elmi işçisi, 1976-1979-cu illərdə Elmlər Akademiyası "Xəzər" elmi mərkəzinin kiçik elmi işçisi və baş elmi işçisi olmuşdur. O, 1979-cu ildə "Xəzərdənizneftqazsənaye" İstehsalat Birliyinin Kompleks dəniz geoloji kəşfiyyat kontorunda geologiya şöbəsinin rəisi təyin olunaraq 1984-cü ilədək bu vəzifədə çalışmış, 1984-1991-ci illərdə isə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin neft və kimya sənayesi şöbəsində təlimatçı və bölmə müdiri işləmişdir.

1993-cü ildə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti təyin edilən Natiq Əliyev 2005-ci ilədək həmin vəzifəni tutmuş, 2005-2013-cü illərdə Azərbaycan Respublikasının sənaye və energetika naziri, 2013-cü ildən ömrünün sonunadək isə energetika naziri olmuşdur.

Natiq Əliyev uzun illər Azərbaycanın milli maraqlarının qorunması üçün bilik və bacarığını əsirgəməyərək, özünün yüksək peşəkarlığı və təşəbbüskarlığı sayəsində ölkənin enerji təhlükəsizliyinin təmin olunmasına yönəlmiş dövlət proqramları və inkişaf konsepsiyalarının hazırlanıb müvəffəqiyyətlə gerçəkləşdirilməsində təqdirəlayiq fəaliyyət göstərmişdir. Respublikamızın 1994-cü ilin sentyabrında dünyanın transmilli şirkətləri ilə imzaladığı "Əsrin müqaviləsi" ilə başlanan yeni neft strategiyasının uğurla həyata keçirilməsində, neft-qaz sazişlərinin imzalanmasında, Bakı-Supsa, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum kimi qlobal layihələrin reallığa çevrilməsində və bütövlükdə Azərbaycanın enerji sahəsində tarixi nailiyyətlər qazanmasında Natiq Əliyevin özünəməxsus xidmətləri vardır. O, qlobal enerji təhlükəsizliyi layihəsi sayılan "Cənub Qaz Dəhlizi" üzrə əməkdaşlıq münasibətlərinin qurulması və layihənin yerinə yetirilməsi işinə layiqli töhfələr vermişdir.

Natiq Əliyevin tədqiqatçı-alim olaraq Xəzər dənizində neft-qaz yataqlarının axtarışı və kəşfiyyatına, eləcə də enerji sektorunun ayrı-ayrı məsələlərinin öyrənilməsinə dair 100-dən artıq sanballı elmi araşdırması mütəxəssislər tərəfindən rəğbətlə qarşılanmışdır.

Beynəlxalq enerji siyasəti sahəsində tanınmış mütəxəssislərdən olan Natiq Əliyevin Azərbaycanın sosial-iqtisadi yüksəlişi və enerji təhlükəsizliyinin təmin olunmasında, enerji resurslarından istifadənin səmərəliliyinin artırılması işlərinin əlaqələndirilməsində, neft sənayesinin və energetikanın inkişafında səmərəli xidmətləri yüksək qiymətləndirilmişdir. O, bir sıra xarici ölkələrin mötəbər mükafatlarını almış, müstəqil Azərbaycan Respublikasının ali dövlət təltiflərindən "Şöhrət" ordeninə layiq görülmüşdür. Tanınmış ictimai-siyasi xadim, Əməkdar mühəndis, bacarıqlı təşkilatçı və təvazökar insan Natiq Əliyevin xatirəsi onu tanıyanların qəlbində həmişə yaşayacaqdır.

**Allah rəhmət eləsin!**

**İlham Əliyev**
**Mehriban Əliyeva**
**Artur Rasizadə**
**Oqtay Əsədov**
**Ramiz Mehdiyev**
**Yaqub Eyyubov**
**Valeh Ələsgərov**
**Hacıbala Abutalıbov**
**Akif Əlizadə**
**Şahin Mustafayev**
**Rövnəq Abdullayev**
**Xoşbəxt Yusifzadə**
**Etibar Pirverdiyev**
**Balababa Rzayev**
**Natiq Abbasov**

Mərhumun cənazəsi vidalaşmaq üçün 2017-ci il iyunun 10-da saat 12.00-dan 14.00-dək Şəhriyar adına Bakı Mədəniyyət Mərkəzinin binasında (Rəşid Behbudov küçəsi, 3) qoyulacaqdır. Dəfn mərasimi Fəxri xiyabanda keçiriləcəkdir.

# Azərbaycan Avropanın enerji xəritəsini yenidən hazırlayan güclü dövlətdir

## *Prezident İlham Əliyev: "Biz Xəzər dənizi, Qafqaz və Avropanın yeni geniş regional əməkdaşlıq formatını yaradacağıq"*




***Bu gün Azərbaycan üçün əsas bazar Avropa bazarıdır və Avropa üçün də yeni mənbələr böyük əhəmiyyət daşıyır. Məhz əsas enerji təhlükəsizliyi və enerji şaxələndirilməsi deyəndə də, ilk növbədə, yeni mənbələr nəzərdə tutulur. Avropa ölkələri üçün yeganə yeni mənbə isə Azərbaycandır. Çünki qalan bütün mənbələr artıq uzun illərdir ki, Avropanı təbii qazla qidalandırır. Elə dünyanın 30 ölkəsini təmsil edən 300-dək şirkətin qatıldığı XXIV Beynəlxalq "Xəzər Neft və Qaz-2017" sərgi-konfransında Azərbaycan Prezidenti İlham Əliyev bir daha diqqəti sözügedən məsələyə yönəldib: "Hazırda bizim əsas prioritetimiz qeyri-neft sektorunun inkişafıdır. Biz neft sektorunda əldə etdiyimiz təcrübəni, xüsusilə, xarici sərmayədarlarla əməkdaşlıq təcrübəmizi indi qeyri-neft sektoruna da tətbiq etməyə çalışırıq və bu sahədə də uğurlara nail ola bilmişik".***

Heç kəsə sirr deyil ki, 1994-cü ildə "Əsrin müqaviləsi" imzalanmasaydı, Azərbaycanda neft-qaz sahəsinə investisiyalar, "Şahdəniz" yatağına heç bir sərmayə qoyulmazdı. Əgər neft-qaz kəmərləri tikilməsəydi, bu gün "Cənub Qaz Dəhlizi" icra edilə bilməzdi. Əgər nəqliyyat layihələri icra olunmasa idi, bu gün Bakı-Tbilisi-Qars layihəsinə heç kim vəsait qoymazdı. Məhz "Əsrin kontraktı"nın uğurla icra edilməsi imkan verdi ki, neftdən əldə olunan vəsait insan kapitalına, qeyri-neft sektoruna, infrastruktur layihələrinə yönəldilsin. Bu gün bir məsələ də reallıqdır ki, Azərbaycan, nəinki regionda, artıq Avropa qitəsində enerji təhlükəsizliyinə dəyərli töhfəsini verməkdədir. Təbii ki, ölkəmizin rolu artdıqca imkanları da, beynəlxalq nüfuzu da, təsir imkanları da genişlənir. Getdikcə ölkəmizin tərəfdaşlarının coğrafiyası genişlənir. İmzalanan yeni müqavilələr, sözsüz ki, əməkdaşlıqda yeni istiqamətlərin müəyyənləşdirilməsində stimulverici amildir. Azərbaycan liderlik mövqeyini nümayiş etdirməklə, Avropanın enerji xəritəsini yenidən tərtib edir. Vaxtilə çoxlarına əfsanə kimi görünən BTC və BTƏ neft-qaz kəmərlərinin reallığa çevrilməsi Azərbaycanın iqtisadi imkanlarını genişləndirməklə yanaşı, beynəlxalq nüfuzunun artmasını şərtləndirdi. Aydındır ki, Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərlərinin çəkilişi ilə dünya enerji bazarında mövqeləri möhkəmlənən Azərbaycanın imkanlarının tükənməzliyi alternativ layihələrinin gerçəkləşməsi təşəbbüsünün şaxələndirilməsi imkanlarını artırır. Bölgədə siyasi sabitliyin qorunmasında, dövlətlər arasında iqtisadi və siyasi əməkdaşlığın möhkəmlənməsində böyük xidmətləri olan Azərbaycan neft-qaz və nəqliyyat layihələrinin reallaşmasında təşəbbüskar bir dövlət kimi vədinə sadiqliyini bəyan edir.

Prezident İlham Əliyev qeyd edib ki, "Cənub Qaz Dəhlizi"nin reallaşması bizim imkanlarımızı daha da genişləndirəcək, həm iqtisadi, həm siyasi imkanlarımız böyük dərəcədə artacaq. 2012-ci ildə TransAnadolu-TANAP qaz boru kəmərinin tikintisi ilə əlaqədar Azərbaycanla Türkiyə arasında sazişin imzalanması, 2013-cü ildə TransAdriatik boru kəmərinin Avropaya əsas ixrac marşrutu kimi seçilməsi enerji sektorunda əldə olunan uğurların davamlılığının təsdiqidir.

"TAP Azərbaycan, Yunanıstan, İtaliya və Albaniya arasında münasibətləri daha da gücləndirəcəkdir. Biz Xəzər dənizi, Qafqaz və Avropanın yeni geniş regional əməkdaşlıq formatını yaradacağıq. Bu, bizim hamımıza fayda verəcəkdir. TAP layihəsinin reallaşması nəticəsində çoxlu işlər olacaq, minlərlə yeni iş yeri yaradılacaqdır. Bu da Azərbaycana Avropa bazarına enerjini təchiz etmək üçün yeni marşrutun yaradılmasından ibarət strateji məqsədləri tam yerinə yetirmək imkanını verəcəkdir" söyləyən dövlətimizin başçısı İlham Əliyev bildirir ki, biz bu məqsədə nail olacağıq, çünki bu günədək işlər qrafik üzrə gedir. Azərbaycan qazının Avropaya nəqli üçün TAP-ın seçilməsi beynəlxalq aləmdə də alqışlanaraq bildirilmişdir ki, bu, Avropanın enerji təhlükəsizliyi və rəqabət qabiliyyətinin gücləndirilməsi, eləcə də, Azərbaycanla ikitərəfli münasibətlərin genişləndirilməsi yolunda mühüm addımdır.

Bir sözlə, dünya enerji bazarında mövqeləri möhkəmlənən, investisiya imkanları artan Azərbaycanın təşəbbüsləri dəstəkləndiyi kimi mövqeləri də möhkəmlənməkdədir. Bəzi Avropa ölkələrinin enerji balansında Azərbaycan neftinin payı 30-40 faizə çatır. Bu da, onu göstərir ki, Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində yeganə alternativ mənbədir.

***"Səs" Analitik Qrupu***

# Qubada “Soyqırımı memorial kompleksi” ilə bağlı yaradılan komissiyanın iclası olub











“Soyqırımı memorial kompleksi”ndə açıq havada qalan insan sümüklərinin təbii proseslər nəticəsində çürüməsi, torpağın eroziyaya uğraması və sürüşmə hallarının aktivləşməsi ilə bağlı yaranmış mövcud vəziyyətin araşdırılması və baş verən proseslərin qarşısının alınması məqsədilə Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına əsasən yaradılan komissiyanın iyunun 9-da Qubada iclası keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi-şöbə müdiri Əli Həsənovun rəhbərliyi ilə komissiyanın bütün üzvləri əvvəlcə “Soyqırımı memorial kompleksi”nin məzarlıq hissəsində insan sümüklərinə və sürüşmə hallarının aktivləşdiyi ərazilərə baxıblar.

Komissiya üzvləri Heydər Əliyev Fondunun dəstəyi ilə yaradılan Quba Soyqırımı Memorial Kompleksini də ziyarət ediblər. Komissiyanın sədri, Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi-şöbə müdiri Əli Həsənov xatirə kitabına ürək sözlərini yazıb. Sonra komissiyanın Quba Rayon İcra Hakimiyyətində keçirilən iclasında kompleksin məzarlıq hissəsində yaranmış mövcud vəziyyətlə bağlı müzakirələr aparılıb, komissiya üzvlərinin təklifləri dinlənilib. Qeyd olunub ki, memorial kompleks XX yüzilliyin əvvəlində ermənilərin azərbaycanlılara qarşı həyata keçirdikləri soyqırımı, etnik təmizləmə, dinc əhalinin amansızlıqla qətlə yetirilməsini faktlarla əks etdirən muzey və kütləvi məzarlıqdan ibarətdir. Kompleks erməni millətçilərinin cinayətkar əməllərinin dünya ictimaiyyətinə çatdırılmasında, həmçinin Azərbaycan xalqının gələcək nəsillərinin qan yaddaşının qorunmasında və gənclərin vətənpərvərlik ruhunda tərbiyəsində mühüm rol oynayır. Dövlətimizin başçısının həyata keçirdiyi siyasət ölkəmizin haqq səsinin beynəlxalq müstəvidə eşidilməsi, Ermənistanın işğalçılıq siyasətinin dünya ictimaiyyətinə çatdırılması prosesində öz bəhrələrini verməkdədir. Komissiya araşdırmanın nəticələrini və görüləcək işlər barədə təklifləri bir ay müddətində Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına təqdim edəcək.

Xatırladaq ki, Prezident İlham Əliyev “Soyqırımı memorial kompleksi”ndəki mövcud vəziyyətin araşdırılması və baş verən proseslərin qarşısının alınması məqsədilə müvafiq tapşırıq verib. Dövlətimizin başçısının tapşırığına uyğun olaraq, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyev “Quba şəhərində “Soyqırımı memorial kompleksi” ilə bağlı bəzi məsələlər haqqında” sərəncam imzalayıb. Sənədə əsasən kompleksin mövcud vəziyyətinin araşdırılması və görüləcək işlər barədə müvafiq təkliflərin hazırlanması üçün komissiya yaradılıb. Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi-şöbə müdiri Əli Həsənov komissiyanın sədri təyin edilib. Komissiyanın tərkibinə, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, Milli Məclisin elm və təhsil komitəsinin sədri İsa Həbibbəyli, Azərbaycan Milli Elmlər Akademiyasının A.Bakıxanov adına Tarix İnstitutunun direktoru, Milli Məclisin deputatı Yaqub Mahmudov, Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, mədəniyyət və turizm nazirinin birinci müavini Vaqif Əliyev, ekologiya və təbii sərvətlər nazirinin müavini Firdovsi Əliyev, ədliyyə nazirinin müavini Toğrul Musayev, Prezident Administrasiyasının humanitar siyasət məsələləri şöbəsi müdirinin müavini Seymur Fətəliyev, Quba Rayon İcra Hakimiyyətinin başçısı Yaşar Məmmədov, Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumunun prezidenti Rauf Zeyni daxildirlər.

# Əli Həsənov: Quba şəhərindəki "Soyqırımı memorial kompleksi"ndə vəziyyətlə bağlı təkliflər öyrəniləcək və sistemləşdirilərək Azərbaycan Respublikasının Prezidentinə təqdim ediləcək



Quba şəhərində "Soyqırımı memorial kompleksi"nin mövcud vəziyyətinin araşdırılması və görüləcək işlər barədə müvafiq təkliflərin hazırlanması üçün yaradılmış komissiya iyunun 9-da kompleksin məzarlıq hissəsində insan sümüklərinə və sürüşmə hallarının aktivləşdiyi ərazilərə baxış keçirib və müvafiq müzakirələr aparıb. Komissiyanın sədri, Prezidentin ictimai-siyasi məsələlər üzrə köməkçisi-şöbə müdiri Əli Həsənov bununla bağlı AZƏRTAC-a açıqlamasında deyib: -Bildiyiniz kimi, Quba şəhərindəki "Soyqırımı memorial kompleksi" 1918-ci ildə erməni silahlı dəstələrinin Azərbaycan torpaqlarında həyata keçirdikləri kütləvi qırğınlar və soyqırımı nəticəsində həlak olan on minlərlə azərbaycanlının xatirəsinə yaradılmış abidədir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2009-cu il dekabrın 30-da imzaladığı Sərəncama müvafiq olaraq Heydər Əliyev Fondu tərəfindən yaradılmış kompleks ən müasir standartlara cavab verir və öz möhtəşəmliyi ilə seçilir. Abidə-muzeydə mövcud olan şərait və tarixi sənədlər, faktlar və ekspozisiyalar həmin dövrdə erməni millətçilərinin dinc əhaliyə qarşı törətdiyi vəhşiliklər barədə məlumat əldə edilməsi və bütün bunların dünya ictimaiyyətinə çatdırılması üçün geniş imkanlar yaradır. Təəssüf ki, son zamanlar kompleksin məzarlıq hissəsindəki ərazidə açıq havada qalan insan sümüklərinin təbii proseslər nəticəsində çürüməsi, torpağın eroziyaya uğraması və sürüşmə hallarının aktivləşməsi müşahidə olunur. Məlum olduğu kimi, cənab Prezident kompleksin mövcud vəziyyətinin araşdırılması və baş verən proseslərin qarşısının alınması məqsədilə tapşırıq verib. Tapşırığa uyğun olaraq Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev tərəfindən "Quba şəhərində "Soyqırımı memorial kompleksi" ilə bağlı bəzi məsələlər haqqında" sərəncam imzalanıb və aidiyyəti orqanların nümayəndələrindən, həmçinin mütəxəssislərdən ibarət komissiya yaradılıb. Bu gün kompleksin məzarlıq hissəsində insan sümüklərinə və sürüşmə hallarının aktivləşdiyi ərazilərə baxıldı. Daha sonra isə Quba Rayon İcra Hakimiyyətində keçirilən iclasda mövcud vəziyyətlə bağlı müzakirələr aparıldı və artıq problemin aradan qaldırılmasına dair ilkin təkliflər də var. Daxil olan təkliflər yaxın zamanlarda öyrəniləcək və sistemləşdirilərək Azərbaycan Respublikasının Prezidentinə təqdim ediləcək.

## Estoniyanın xarici işlər naziri Azərbaycana rəsmi səfərə gələcək



Estoniyanın xarici işlər naziri Sven Mikser iyunun 12-də Azərbaycana rəsmi səfərə gələcək. Xarici İşlər Nazirliyindən SİA-ya bildirilib ki, səfər çərçivəsində nazir Sven Mikserin azərbaycanlı həmkarı Elmar Məmmədyarov ilə görüşü nəzərdə tutulub. Görüşdən sonra nazirlər birgə mətbuat konfransı keçirəcəklər.

# Bakıda "Dayanıqlı inkişaf məqsədləri: qadınlar və inkişaf" mövzusunda konfrans keçirilib




İyunun 9-da Bakıda "Dayanıqlı inkişaf məqsədləri: qadınlar və inkişaf" mövzusunda konfrans təşkil edilib. AZƏRTAC xəbər verir ki, tədbir Birləşmiş Millətlər Təşkilatı (BMT), İqtisadiyyat Nazirliyi və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin (AQUPDK) birgə təşkilatçılığı ilə keçirilib.

Konfransda çıxış edən Azərbaycan Respublikası Baş nazirinin müavini, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədov ölkəmizdə ailə institutunun möhkəmləndirilməsi, qadın və uşaq hüquqlarının müdafiəsi istiqamətində həyata keçirilən tədbirlər və layihələr barədə məlumat verib. Bildirilib ki, Azərbaycanda qadın və uşaq hüquqlarının müdafiəsi ilə yanaşı, gender bərabərliyinin təmin edilməsi, məişət zorakılığının qarşısının alınması, qadın sahibkarlığının inkişaf etdirilməsi məqsədilə mühüm dövlət sənədləri qəbul edilib. Prezident İlham Əliyevin diqqət və qayğısı nəticəsində Azərbaycan qadınları müxtəlif sahələrdə layiqli şəkildə təmsil olunurlar. Bu gün qadınlarımızın əldə etdikləri yüksək nailiyyətlər görülən işlərin mühüm göstəricisidir. Ölkəmizdə qadınların sosial durumunun yaxşılaşdırılması və onların ictimai fəallığının yüksəldilməsi istiqamətində mühüm addımlar atılıb. Son illərdə dövlət qadın siyasətinin gücləndirilməsi, eləcə də hüquqi bazanın təkmilləşdirilməsi ilə bağlı qəbul olunan qanunlar bir daha göstərir ki, Azərbaycanda bu proses davamlıdır. Əlavə edib ki, qadınlar ölkəmizin həyatında mühüm rol oynayırlar. Ancaq qadınların rolu daha da artırılmalıdır. Azərbaycanda gender məsələlərinə həssaslıqla yanaşılır. Gender bərabərliyinin təmin edilməsi cəmiyyətin inkişafı üçün qadınların potensialından istifadə imkanı yaradır. İctimai işlərdə, iqtisadiyyat və digər sahələrdə qadınların potensialından nə qədər çox istifadə edilirsə, cəmiyyət də o qədər çox sürətlə inkişaf edir.

Baş nazirin müavini vurğulayıb ki, beynəlxalq təşkilatların hesablamalarına görə, dünyada kişilərin 70, qadınların 46 faizi ictimai fəaliyyətə cəlb edilib. Ancaq dünyada bütövlükdə görülən işlərin üçdə ikisini qadınlar yerinə yetirirlər. Bura ev təsərrüfatı da daxildir. Görülən işlərin üçdə ikisini yerinə yetirmələrinə baxmayaraq, yaradılan dəyərlərin yalnız 10 faizi qadınlara çatır. Dünyada təhsil almaqdan məhrum olanların üçdə ikisi də qadınlardır. BMT-nin hesablamalarına görə, dünyada hər dəqiqə doğuş zamanı 1, il ərzində 500 minə qədər qadın həyatını itirir.



Əli Əhmədov Azərbaycan qadınlarının ictimai-siyasi həyatda fəal iştirakı, onlar üçün yaradılan şərait barədə də söhbət açıb. O, qadınların ictimai sferada, iqtisadi fəaliyyət sahəsində iştirakının artması ilə cəmiyyətin inkişafında mühüm rol oynadıqlarını vurğulayıb. Bildirib ki, təhsil, səhiyyə sahələrində qadınların iştirakı kişilərdən xeyli üstündür. Bu sahədə çalışanların təxminən 70 faizindən çoxu qadındır. Bu, Azərbaycan qadınlarının savadlı olmasını aydın göstərir. Bələdiyyələrdə təxminən 30 faizdən artıq qadın təmsil olunur.

Azərbaycanın Dayanıqlı İnkişaf Məqsədlərindən irəli gələn vəzifələri həyata keçirməsi məsələsinə toxunan Əli Əhmədov bildirib ki, bunun üçün hökumətimiz bütün qüvvəsini səfərbər edib.

BMT-nin Azərbaycan Respublikasındakı rezident əlaqələndiricisi və BMT-nin İnkişaf Proqramının (BMTİP) rezident nümayəndəsi Qulam İshaqzai bildirib ki, Azərbaycanda gender bərabərliyinə xüsusi diqqət yetirilir. Qadınlar sosial sahələrdə daha çox fəallıq nümayiş etdirirlər. Bir sıra ölkələrdə qadınlar parlamentdə və digər dövlət işlərində təmsil olunurlar. Ancaq təəssüf ki, qadınlara qarşı ayrı-seçkiliyin mövcud olduğu ölkələr də var. Azərbaycanda isə gender bərabərliyi inkişaf edir, qadınların ictimai həyatda iştirakı artır. Hətta Azərbaycan 1918-ci ildə Şərqdə qadınlara səsvermə hüququ verən ilk ölkə olub. İslam dinində də qadınların ictimai həyatda fəal olmaları barədə nümunələr var. Azərbaycan gender bərabərliyi ilə bağlı bir sıra konvensiyalara qoşulub. Azərbaycanda qadınlar ölkə rəhbərliyində də təmsil olunur. Bu sahədə işlərin davam etdirilməsi önəmlidir. Dayanıqlı İnkişaf Məqsədlərində gender bərabərliyinə xüsusi önəm verilir. Biz əmin olmalıyıq ki, Dayanıqlı İnkişaf Məqsədlərinin gender bərabərliyi ilə bağlı komponentləri də uğurla yerinə yetirilir. Qadınların iqtisadi həyatda rolunun artırılmasına daha çox önəm verilməlidir.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova nəzərə çatdırıb ki, 2012-ci ildə sahibkarlar arasında qadınlar 17 faiz təşkil edirdisə, 2017-ci ilin əvvəlində bu göstərici 21 faizə çatıb. 78 rayon icra hakimiyyətindən 71-də icra başçılarının müavinləri qadınlardır. Azərbaycanda qadın alverinin və uşaqlara qarşı zorakılığın qarşısının alınması istiqamətində ardıcıl işlər görülür. Azərbaycan hökuməti uşaqların, qadınların təhsilinə xüsusi diqqət yetirir. Bu sahədə fəallığın artırılması qarşımızda əsas vəzifə kimi dayanır. Qadınların iqtisadi resurslara, informasiyaya çıxışında çatışmazlıqlar var və bu sahədə maarifləndirmə işlərini artırmalıyıq. Komitə sədri Dayanıqlı İnkişaf Məqsədlərinin tədris proqramlarına daxil edilməsini məqsədəuyğun hesab etdiyini bildirib.

Milli Məclisin sədr müavini Bahar Muradova qeyd edib ki, qadınların nə dərəcədə inkişaf komponenti kimi çıxış etməsinə diqqət yetirmək lazımdır. "Qadınlar cəmiyyətin ayrılmaz hissəsidir. Biz, ümumilikdə, cəmiyyəti maarifləndirməliyik. Bu zaman dayanıqlı inkişaf da mümkün olacaq. Azərbaycanda qanunvericilik bazası və ənənələrimiz baxımından gender bərabərliyi ilə bağlı problem yoxdur. Necə olur ki, ailədə qadınlara hər şeyi etibar edirik, cəmiyyət və dövlət həyatında qadınları qərar qəbul etməyə nisbətən az buraxırıq?! Qadınların iştirakçılığının artırılması, ümumən, cəmiyyətin və dövlətin inkişafına xidmət edir", - deyə Bahar Muradova əlavə edib.

İqtisadiyyat nazirinin müavini Sevinc Həsənova cəmiyyətin inkişafında qadınların rolundan söhbət açıb. Nazir müavini ölkəmizdə dövlət qadın siyasətinin uğurla həyata keçirilməsində, ictimai-siyasi, iqtisadi, mədəni proseslərdə qadınların fəal iştirak etdiklərini bildirib. Qeyd edib ki, Azərbaycan qadınları fəaliyyət göstərdikləri sahələrdə fədakarlıqla çalışır, dövlət quruculuğu prosesinə layiqli töhfələr verirlər. Ölkəmizdə qadınların ictimai-siyasi, iqtisadi, mədəni və digər sahələrdə iştirakı, gender bərabərliyinin inkişaf etdirilməsi üçün mühüm addımlar atılır. Tədbir mövzu ətrafında müzakirələrlə davam edib.

# Yeni Azərbaycan Partiyası Qaradağ rayon təşkilatının konfransı keçirilib




***Yeni Azərbaycan Partiyası Qaradağ rayon təşkilatının XI hesabat-seçki konfransı keçirilib. AZƏRTAC xəbər verir ki, tədbir iştirakçıları əvvəlcə rayon mərkəzində ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edib, önünə tər gül dəstələri düzüblər. Sonra konfrans işini rayondakı Heydər Əliyev Mərkəzində davam etdirib.***

Tədbiri açan YAP Qaradağ rayon təşkilatının sədri, Milli Məclisin deputatı Aydın Hüseynov müstəqilliyimizin ilk illərində Yeni Azərbaycan Partiyasının yaranmasını zəruri edən şərtlər barədə danışıb. O bildirib ki, Yeni Azərbaycan Partiyası müstəqil dövlətimizin inkişafında, tərəqqisində, ümumiyyətlə, sosial-iqtisadi və ictimai-siyasi həyatında misilsiz xidmətlər göstərib. YAP Heydər Əliyevin dövlətçilik ideyalarının gerçəkləşməsi yolunda bütün gücünü, təşkilatçılıq bacarığını səfərbər edib. Bu gün, Yeni Azərbaycan Partiyasının sədri, Prezident İlham Əliyev ulu öndər Heydər Əliyevin yolunu layiqincə davam etdirir.

YAP Qaradağ rayon təşkilatının hesabat dövründəki fəaliyyəti barədə məlumat verən A.Hüseynov deyib ki, hesabat dövründə rayon təşkilatı sosial bazasını xeyli möhkəmləndirib, bir çox ərazi ilk partiya təşkilatları təsis edilib və partiya sıralarının daha da artırılması istiqamətində kifayət qədər işlər görülüb. Bu dövrdə partiya sıralarına 1033 nəfər yeni üzv qəbul olunub və hazırda 122 ərazi ilk partiya təşkilatında 11819 nəfər partiya üzvü fəaliyyət göstərir. Eyni zamanda, hesabat dövründə partiya təşkilatımız öz sıralarında gənclərin sayının artırılmasına xüsusi diqqət yetirib. Partiya üzvləri arasında onların sayı 4060 nəfərə çatıb ki, bu da partiya üzvlərinin ümumi sayının 34 faizini təşkil edir.



Sonra konfransda Nəzarət-Təftiş Qrupunun hesabatını Əlizamin Məmmədov təqdim edib. Hesabat ətrafında YAP Qaradağ Rayon Təşkilatı Gənclər Birliyinin sədri Ramiz Yusubov, rayon təşkilatı Qadınlar Şurasının sədri Hicran Xəlilova, YAP Qaradağ Rayon Təşkilatının İdarə Heyətinin üzvü Hicrət Qaradağlı çıxış edərək hesabatı qənaətbəxş qiymətləndiriblər.

Konfransda çıxış edən Milli Məclisin deputatı, Azərbaycan Ağsaqqallar Şurasının sədri Fəttah Heydərov deyib ki, Azərbaycan son illərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə sosial-iqtisadi və siyasi sahələrdə əhəmiyyətli uğurlar əldə edib, ölkəmizin beynəlxalq arenada mövqeləri daha da möhkəmlənib. Həmçinin ölkəmizin gələcək inkişafı baxımından önəm kəsb edən tarixi nailiyyətlər əldə olunub. Bu nailiyyətlər isə əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş və bu gün Prezident İlham Əliyevin uğurla davam etdirdiyi siyasi kursun bəhrələridir.

Çıxış edən Yeni Azərbaycan Partiyası İcra katibinin müavini, Milli Məclisin ictimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov deyib ki, Yeni Azərbaycan Partiyası Azərbaycan dövlətçiliyinin ən ağır günlərində, müstəqilliyimizi itirmək ərəfəsində olduğumuz bir dövrdə xalqın istək və arzularının nəticəsi kimi yaranıb, güclü təşkilatlanıb və xalqımızın böyük dəstəyi ilə hakimiyyətə gəlib. Bu partiyanın yaranması Azərbaycan xalqının böyük və müdrik oğlu, onun xilaskarı Heydər Əliyevin şərəfli adı, gərgin və səmərəli fəaliyyəti ilə bağlıdır. Ulu öndər Heydər Əliyevin xalqımızın təkidli tələbi ilə hakimiyyətə qayıdışı müstəqil dövlətçiliyimizi anarxiyadan, parçalanmaq və məhv olmaq təhlükəsindən, iqtisadi tənəzzüldən, beynəlxalq təcriddən xilas edib. Ulu Öndərin yaratdığı və ötən müddətdə şərəfli və əzəmətli inkişaf yolu keçən Yeni Azərbaycan Partiyası hazırda həm ölkəmizdə, həm də regionda böyük nüfuz sahibi olan siyasi təşkilata çevrilib.

Qaradağ Rayon İcra Hakimiyyətinin başçısı Süleyman Mikayılov çıxış edərək bildirib ki, Yeni Azərbaycan Partiyası dünyaşöhrətli siyasətçi, təcrübəli dövlət xadimi ulu öndər Heydər Əliyevin yaratdığı güclü bir siyasi təşkilatdır. Prezident İlham Əliyevin sədrliyi ilə bu gün YAP Azərbaycan cəmiyyətinin mütərəqqi ideyalarla inkişafına xidmət edir. Yeni Azərbaycan Partiyası siyasi arenaya daxil olduğu gündən həmişə böyük qələbələr qazanıb. Çünki YAP həmişə cəmiyyətimizin maraqlarını özünün ən ümdə vəzifəsi kimi qəbul edib. Bu böyük siyasi təşkilat həmişə dövlətimizin, xalqımızın rifahı, inkişafı naminə bütün gücünü səfərbər edib. Sonra təşkilati məsələlərə baxılıb.

Aydın Hüseynov yenidən YAP Qaradağ rayon təşkilatının sədri, rayon təşkilatının İdarə heyəti və Şurasının üzvləri, Nəzarət Təftiş Qrupu və təşkilatın sədr müavinləri seçilib.

# QHT-lərə Dövlət Dəstəyi Şurası elektron hesabat proqramını təqdim edib



İyunun 9-da Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası tərəfindən elektron hesabat proqramının təqdimatı olub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurası Katibliyinin icraçı direktoru Fərasət Qurbanov tədbirdə elektron hesabat proqramı barədə məlumat verib. O bildirib ki, Şuranın bütün xidmətlərinin elektron qaydada həyata keçirilməsi üçün zəruri addımlar atılıb. Bir neçə ildir ki, QHT-lər Şuraya maliyyə hesabatlarını elektron qaydada təqdim edirlər. Bununla yanaşı, QHT-lərdən layihə təkliflərinin qəbulu, ekspertizası da elektron qaydada aparılır. Bu ayın sonunda isə təsviri hesabatın elektron qaydada qəbulu tətbiq olunacaq.

Sonra elektron hesabat proqramı təqdim edilib. Təqdimatdan sonra Şuranın üzvü, Milli Məclisin deputatı Şahin İsmayılov elektron xidmətlərin həyata keçirilməsi prosesindən danışıb. "Çox güman ki, yaxın gələcəkdə elektron xidmətdən istifadə etməyən digər dövlət qurumları, aidiyyəti təşkilatlar da elektron xidmətə keçəcəklər", - deyə deputat bildirib. Tədbir müzakirələrlə davam edib.

# Tarixi həqiqətlər



***Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevi bir şəxsiyyət kimi ucaldan əsas keyfiyyətlərindən biri Onun dəyişməz əqidəli insan olması, öz xalqına, onun adət-ənənəsinə, əxlaq və mənəviyyat prinsiplərinə möhkəm və qırılmaz tellərlə bağlı olması idi. O, həm də insanın bütövlüyü, daxili zənginliyi və əqidəsinə sadiqliyi kimi mənəvi dəyərləri çox yüksək qiymətləndirirdi.***

Ulu Öndər Heydər Əliyev 1969-cu ildən başlayaraq, respublikaya rəhbərlik etdiyi zamandan çox incə siyasət yeridərək, məscidləri anbar və başqa məqsədlər üçün istifadə edilən obyektlərdən təmizlədi. İbadətgahlar insanların ixtiyarına verildi. İnsanlar Allahın müqəddəs evlərində mənəvi güc tapdılar və əqidəcə saflaşdılar.

Ulu Öndər Heydər Əliyevin müqəddəs yerləri ziyarət edərkən, Mədinə sərhədindəki Peyğəmbər Məscidinin səfər kitabına yazdığı ürək sözləri Onun mənəvi aləmini çox gözəl səciyyələndirir: "Müqəddəs Mədinə şəhərini, islamın müqəddəs abidələrini, Həzrəti Məhəmməd Peyğəmbərin məqbərəsini, məscidini ziyarət etdiyim üçün bir müsəlman kimi özümü xoşbəxt hesab edirəm. Allaha şükür olsun ki, uzun illər qəlbimdə yaşayan arzuma, niyyətimə nail oldum. Bu tarixi hadisə qəlbimdə böyük həyəcan və rahatlıq hissi yaratdı. Bir daha islam mənbəyinin nə qədər ümumbəşəri, fəlsəfi, elmi əsaslara malik olduğunu dərk etdim. Böyük Allahın böyüklüyünü dərk etdim".

Ulu Öndər Heydər Əliyev Azərbaycan Prezidenti kimi vəzifəyə başlayarkən, Qurani-Kərimə and içdi, ilk görüşlərini Təzə Pir məscidində keçirdi və Bibiheybət məscidini yenidən inşa etdirdi.

Ulu Öndər Heydər Əliyev irsinin, xüsusilə də, Onun mənəvi tərbiyə, əxlaq, vətənpərvərlik tərbiyəsi ilə bağlı zəngin irsinin öyrənilməsinin və təbliğinin müasir gənclik üçün çox böyük əhəmiyyəti vardır. Onun müxtəlif illərdə gənclərlə, ziyalılarla görüşlərdə mənəvi tərbiyə ilə bağlı söylədiyi fikirlər, hadisə və təzahürlərin pedaqoji aspektlərinə dair irəli sürdüyü müddəalar cəmiyyət qarşısında, ilk növbədə, məktəb qarşısında duran vəzifələrin həlli baxımından olduqca qiymətlidir.

Onun fikrincə, müasir təhsil sistemi rəhbərlərinə qarşı aşağıdakı tələblər qoyulmalıdır. O, peşə biliklərinə malik olmaqla yanaşı, həm də yüksək əxlaqi və iradi keyfiyyətləri özündə birləşdirməlidir, pedaqoji təzahürləri təhlil edib ümumiləşdirməyi bacarmalıdır, işə yaradıcı münasibət bəsləməli, bazar şəraitində təhsil müəssisələrinin idarə olunmasının və təşkilinin müasir metodlarına dair dərin bilikləri mənimsətmək, təhsil sahəsindəki yenilikləri layiqincə qiymətləndirmək zəruridir. Yalnız bu halda məktəb, ümumilikdə, təhsil sistemi, tərbiyə sahəsində qarşıya qoyulmuş vəzifələrin öhdəsindən uğurla gələ bilər. Ulu Öndər 1994-cü il avqustun 31-də Bakı şəhərinin təhsil işçiləri ilə görüşündə üzünü ölkənin çoxminli müəllim ordusuna tutaraq demişdi: "Müstəqil Azərbaycanın gələcəyi gənclərin əlindədir, gənclərə veriləcəkdir. Ona görə də, məktəbdə gənclərimizi nə qədər yaxşı, hərtərəfli hazırlasalar müstəqil Azərbaycanın gələcəyi o qədər yaxşı, müvəffəqiyyətli, uğurlu, parlaq olar..."

Hər tərəfdən baxanda Ümummilli Lider Heydər Əliyevin zəhməti elə müsbət əxlaqi keyfiyyətləri özündə cəmləşdirir ki, bunu heç vaxt unutmaq olmaz və tarixin bütün mərhələlərində öz dəyərində, öz keyfiyyətlərində qalacaqdır. Ona görə də, bütün gənclər bu ruhda, xüsusən, ideya-siyasi tərbiyə ruhunda, Ulu Öndər Heydər Əliyevin ideologiyasını dərindən öyrənməklə tərbiyə olunmalıdırlar.

Ulu Öndər Heydər Əliyevin yaşadığı ömür müasir Azərbaycan tarixinin qürur doğuran səhifəsidir. Qərinələr ötəcək, tarixçilər həmişə Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illəri Azərbaycanın inkişafının qızıl dövrü kimi qiymətləndirəcəklər.

Respublikanın rəhbər olduğu dövrdə Ulu Öndər Heydər Əliyev ən doğru qərarlar qəbul etmişdi. Ötən əsrin 70-ci və 80-ci illərinin əvvəllərində Dahi Öndər Heydər Əliyevin dinamik fəaliyyəti sayəsində, Azərbaycanın necə sürətlə inkişaf etdiyini yaşlı və orta nəslin nümayəndələri yaxşı xatırlayırlar. Biz indi Azərbaycanın dövlət müstəqilliyi ilə fəxr edirik. Bir sıra nadir ixtisarlar üzrə milli kadrların yetişdirilməsi Onun müstəsna xidmətidir. Mən Ulu Öndərin hakimiyyətə gəldiyi dövrdə tələbə idim, indi isə təhsil işçisiyəm və o illərdə Onun kitabxanaların, ali və orta təhsil müəssisələrinin, Elmlər Akademiyasının maddi-texniki bazasının möhkəmləndirilməsinə necə böyük qayğı göstərdiyini məmnuniyyətlə xatırlayır və qeyd edirəm. Ulu Öndərin uzaqgörənliklə atdığı addımlardan biri də azərbaycanlı gənclərin keçmiş İttifaqın qabaqcıl ali məktəblərində nadir ixtisaslar üzrə təhsil almağa göndərilməsidir. Bu yolla milli kadr potensialı yüksəlir, digər tərəfdən də xalqımızın milli-mənəvi və əxlaqi dəyərlərinin təbliği həyata keçirilirdi.

Ulu Öndər Heydər Əliyev həyatının ən çətin anlarında belə xalqının ağrı-acısı ilə yaşadığını sübut etmişdir. Bunun üçün 1990-cı il yanvarın 20-də mərkəzi hakimiyyətin xalqımıza qarşı törətdiyi qanlı 20 Yanvar faciəsinə görə, Ulu Öndər Heydər Əliyevin çıxışını xatırlamaq kifayətdir. Xalqa, vətənə sədaqət Ulu Öndərin canında və qanında idi.

Ulu Öndər Heydər Əliyevin qüdrəti 1993-cü ilin yayında xalqın istəyi ilə ölkənin siyasi rəhbərliyinə qayıtdıqdan sonra xilaskar missiyasını yerinə yetirdi. O, qətiyyət, müdriklik və uzaqgörənlik nümayiş etdirərək tənəzzül, çaxnaşmalar, başabəla liderlərin siyasi avantüraları burulğanında çapalayan Azərbaycanı ahəngdar inkişaf relsləri üzərinə çıxardı, etibarlı gələcəyimizin möhkəm təməlini qurdu. Ölkəni böhrandan çıxaran, onu sabitləşdirən və inkişafa istiqamətləndirən Ulu Öndər Heydər Əliyev kursu, həm də müstəqil Azərbaycanın sabahının "sönməz çırağıdır". Son prezident seçkilərində də xalq Ulu Öndərimizin layiqli siyasi varisi Cənab İlham Əliyevə səs verərək, Onu dövlət başçısı seçdi.

Fərəhləndirici haldır ki, Prezident İlham Əliyev bəslənən ümidləri səylə doğrultmağa çalışır. Respublikamızda həyatın dəyişməli, iqtisadi islahatların tərəqqisi, regionların nəhəng potensialının hərəkətə gətirilməsi, cəmiyyətin idarə olunmasında demokratik dəyərlərin əsas tutulması, beynəlxalq aləmdə ölkənin nüfuzunun artması, təhsildə qazanılan uğurlar, bütövlükdə, Azərbaycanın milli inkişaf konsepsiyası olan Ümummilli Lider Heydər Əliyev kursunun təntənəsi, həyatda öz əksini tapması deməkdir.

***Ofelya Mürsəlova,***
***ADPU-nun Pedaqogika kafedrasının baş müəllimi***

# Azərbaycan ilə Pakistan arasında təhlükəsizlik və müdafiə sahəsində əməkdaşlıq məsələləri müzakirə edilib

***Azərbaycanın Pakistandakı səfiri Əli Əlizadə bu ölkənin Baş nazirinin milli təhlükəsizlik məsələləri üzrə məsləhətçisi, ehtiyatda olan general-leytenant Nasir Xan Janjua ilə görüşüb. Görüşdə Azərbaycan ilə Pakistan arasında dostluq və strateji tərəfdaşlıq münasibətlərinin inkişafından məmnunluq ifadə olunub, təhlükəsizlik və müdafiə sahəsində əməkdaşlığın davam etdirilməsi, qarşılıqlı səfərlərin təşkili ilə bağlı fikir mübadiləsi aparılıb.***



Ermənistanın işğalçılıq siyasəti və təxribatları haqqında məlumat verən Əli Əlizadə regionda təhlükəsizliyin və sabitliyin təmin olunmasına Ermənistanın maneə olduğunu, Pakistanın ölkəmizə birmənalı dəstəyinin daim yüksək qiymətləndirildiyini bildirib.

Azərbaycan Prezidentinin Pakistanla əlaqələrə xüsusi önəm verdiyini vurğulayan səfir Kəşmir üzrə İslam Əməkdaşlıq Təşkilatının Təmas qrupunun üzvü kimi Azərbaycanın da hər zaman Pakistanın yanında olduğunu və Kəşmir məsələsinin BMT-nin Təhlükəsizlik Şurasının qəbul edilmiş qətnamələri əsasında tezliklə həll olunacağına ümid etdiyini diqqətə çatdırıb.

Pakistan Baş nazirinin məsləhətçisi Azərbaycana dəstəyin bundan sonra da davam edəcəyini, Pakistan ilə Azərbaycan arasında ikitərəfli münasibətlərin gələcəkdə daha da genişləndirilməsinin, ikitərəfli əməkdaşlığın uğurla inkişaf etdirilməsi istiqamətində birgə fəaliyyətlərin artırılmasının vacibliyini qeyd edib. Görüşdə təhlükəsizlik və müdafiə sahəsində əməkdaşlığın gələcək perspektivləri və müqavilə-hüquq bazasının gücləndirilməsi məsələləri ətrafında da geniş fikir mübadiləsi aparılıb.

# Kənd təsərrüfatı naziri Yevlaxda vətəndaşlarla görüşüb

***Azərbaycan Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşların qəbulunu keçirir, onların müxtəlif məsələlərlə bağlı müraciətlərinin, ərizə və şikayətlərinin həll olunması üçün tədbirlər görürlər. AZƏRTAC xəbər verir ki, kənd təsərrüfatı naziri Heydər Əsədov iyunun 9-da Yevlax Rayon Kənd Təsərrüfatı İdarəsinin inzibati binasında Yevlax, Goranboy, Göygöl, Samux və Daşkəsən rayonlarından olan vətəndaşları qəbul edib.***

Qəbuldan əvvəl nazir Heydər Əsədov və Yevlax Şəhər İcra Hakimiyyətinin başçısı Qoca Səmədov ümummilli lider Heydər Əliyevin şəhərin mərkəzi meydanındakı abidəsini ziyarət edib, önünə tər çiçəklər qoyublar.

Nazir Heydər Əsədov Yevlax Rayon Kənd Təsərrüfatı İdarəsinin inzibati binasında yaradılan şəraitlə tanış olub, Dövlət Fitosanitar və Baytarlıq Nəzarəti Xidmətlərinin Avropanın ən müasir avadanlıqları ilə təchiz olunmuş laboratoriyasına baxış keçirib. Bildirilib ki, burada yaradılan şərait rayonda aqrar sahə ilə bağlı problemlərin həllinə töhfə verəcək. Nazirliyin idarə və tabeli qurumlarının rəhbərlərinin də iştirakı ilə keçirilən qəbulda 30-dan çox vətəndaşın müraciətinə baxılıb. Qəbula gələn vətəndaşlar əsasən fermerlərə güzəştli kreditlərin verilməsi, toxumçuluq, subsidiya və texnikalarla təminat, ixtisasa uyğun işə qəbul və digər məsələlərlə bağlı müraciətlər ediblər.

Nazir Heydər Əsədov vətəndaşların müraciətlərini, şikayət və təkliflərini dinləyərək, hərtərəfli öyrənilməsi və qanunvericiliyə uyğun tədbirlərin görülməsi üçün nazirliyin müvafiq strukturlarının rəhbərlərinə tapşırıqlar verib. Vətəndaşların müraciətlərinin bir qismi yerindəcə həllini tapıb, qaldırılan digər məsələlər isə araşdırılması üçün nəzarətə götürülüb. Nazirliyin fəaliyyət dairəsinə aid olmayan digər müraciətlər isə müvafiq qurumlara çatdırılmaq üçün qeydiyyata alınıb. Qəbula gələn vətəndaşlar göstərilən diqqət və qayğıya, kənd təsərrüfatı sahəsində mövcud problemlərin mütəmadi olaraq həll olunmasına görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər. Sonra pambıq tarlasına və taxıl biçininə baxış keçirilib.



Nazir Heydər Əsədov, həmçinin “Aqrolizinq” ASC-dən kənd təsərrüfatı texnikalarını lizinqə götürən hüquqi və fiziki şəxslərlə də görüşüb. Məlumat verilib ki, Yevlax, Ağdaş, Goranboy, Samux və digər ətraf rayonlardan olan 63 istifadəçiyə lizinq yolu ilə verilmiş ümumilikdə, 1 milyon 954 min 346,60 manat məbləğində 114 ədəd müxtəlif kənd təsərrüfatı texnikasına 767 min 838,80 manat məbləğində güzəşt tətbiq edilib. Xüsusi Komissiyanın qərarına əsasən tətbiq olunan güzəşt əsasında istifadəçilərlə yeni lizinq müqavilələri bağlanılması, o cümlədən güzəşt tətbiq edildikdən sonra 19 ədəd müxtəlif kənd təsərrüfatı texnikasının istifadəçilərin mülkiyyətinə verilməsi və Baş Dövlət Texniki Nəzarət Müfəttişliyinin rayonlar üzrə bölmələrində qeydiyyata alınması həyata keçirilib və müvafiq sənədlər vətəndaşlara təqdim olunub. Eyni zamanda, “Aqrolizinq” ASC-nin əməkdaşları lizinq yolu ilə əldə etdikləri kənd təsərrüfatı texnikalarının ilkin dəyərinin 20 faizini ödəmiş istifadəçilərdən güzəşt üçün elektron ərizələri qəbul ediblər. İndiyədək “Aqrolizinq” ASC-dən respublika üzrə 7680 istifadəçinin lizinqə götürdüyü 16 min 537 ədəd müxtəlif kənd təsərrüfatı texnikasına, ümumilikdə, 113 milyon 176 min 932,86 manat məbləğində güzəşt tətbiq olunub. Həmin gün Kənd Təsərrüfatı Nazirliyinin Baş Dövlət Texniki Nəzarət Müfəttişliyinin təşkil etdiyi səyyar xidmət zamanı Yevlax, Goranboy, Göygöl, Samux və Daşkəsəndən olan 100-ə yaxın mexanizatorun vaxtı keçmiş sürücülük vəsiqələri də dəyişdirilib.



***Hər bir xalqın milli-mənəvi irsini, əxlaqi dəyərlərini qoruyub saxlamaq, genetik yaddaşını, tarixi kimliyini, özünəməxsusluğunu gələcək nəsillərə ötürmək kimi çətin missiya onun taleyində müstəsna rol oynamış fenomenal şəxsiyyətlərin fəaliyyəti ilə bağlı olmuşdur. Müdriklik nümunəsi olan belə insanlar həmişə ali məqsədlər uğrunda mübarizənin önündə dayanmış, əlverişli siyasi şansdan böyük məharətlə, ustalıqla bəhrələnmiş, xalqın düşüncə sistemini, mental xüsusiyyətlərini istənilən ictimai-iqtisadi formasiyada hifz edərək, möhkəm mənəvi təməl üzərində gələcəyə doğru inamla addımlamışlar. Tarix özündən sonra layiqli irs qoyub getmiş belə fenomen şəxsiyyətlərin, xarizmatik liderlərin həyata keçirdiyi xeyirxah əməllərdə yaşayaraq təsir qüvvəsini qoruyur. Millətin vahid məqsədlər uğrunda səfərbər olunması üçün zəruri olan ideya - milli ideologiya da, məhz belə şəxsiyyətlərin siyasi konsepsiyasında reallığa qovuşur.***

# HEYDƏR ƏLİYEV FENOMENİ - ZƏFƏR VƏ QALİBİYYƏT RƏMZİ

Bu mənada, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev də Azərbaycanın milli-mənəvi dəyərlər sistemini qoruyan, inkişaf etdirən və onu milli özünüdərkin həlledici amilinə çevirən fenomenal lider kimi xalqımızın qəlbində yaşayır. Belə ki, hələ sağlığında Ümummilli Lider zirvəsinə ucalmış bu müdrik şəxsiyyət böyük fədakarlıqlar hesabına qurub-yaratdığı dövlətin sarsılmazlığını, demokratik yüksəlişini, Azərbaycanın müstəqilliyinin əbədiliyini, daimiliyini və dönməzliyini təmin etmişdir.

Bu gün Ulu Öndər Heydər Əliyevin 1969-cu ildə Azərbaycanda siyasi hakimiyyətə gəlişini tarixi hadisə kimi qiymətləndirənlər öz qənaətlərində haqlıdırlar. Çünki rəhbər vəzifədə olduğu az bir müddətdə respublikada köklü dəyişikliklər baş vermişdir. Sovetlər zamanında hər bir tapşırığın mərkəzdən verildiyi və idarə olunduğu bir vaxtda geridə qalan, çıxılmaz sosial-iqtisadi vəziyyətdə olan Azərbaycanda insanların öləziyən ümidlərini ruh yüksəkliyi ilə əvəz edib bir məqsəd uğrunda birləşdirmək, gərgin təsərrüfat, tikinti-abadlıq və quruculuq işlərinə yönəltmək əsl qəhrəmanlıq, vətənə sədaqət nümunəsi, həm də bir tarix idi. İnsanlar həmin tarixi vərəqlədikcə Ulu Öndər Heydər Əliyev zəkasının, düşüncəsinin və müdrikliyinin böyüklüyünü bir daha hiss edir.

Yaxşı məlumdur ki, Dahi Öndər Heydər Əliyevin ikinci dəfə - 1993-cü ilin 15 iyun tarixində siyasi hakimiyyətə gəlişi, nəinki Azərbaycanı, bütöv bir xalqı məhv olmaq təhlükəsindən xilas etdi. Bu, həqiqətən də, bir qurtuluş idi.

1993-cü ilin iyun hadisələrinə qiymət verməyi bacaran hər bir insan dərindən dərk edir ki, Ulu Öndər o dövrdə qardaş qırğınının, vətəndaş müharibəsinin qarşısını almağa həyatını təhlükəyə atmaqla, ölümündən çəkinməyərək nail oldu. Hakimiyyətdə olan AXC-Müsavat iqtidarının səriştəsizliyi, xalqı deyil, yalnız öz mənfəətlərini güdmələri, hər şeyi - ləyaqəti, şərəfi, vicdanı pula satmaları, sonda Azərbaycanın öz müstəqilliyini itirmək təhlükəsi ilə qarşı-qarşıya qoydu. Talanmış dövlət büdcəsi iqtisadiyyatı çökdürmüş, daxili və xarici qüvvələr isə artıq separatçılıq vasitələri ilə ölkəni bölən "xəritələrini" hazırlamışdılar. Qarabağ cəbhəsində isə torpaqlarımız ard-arda erməni işğalçılarına peşkəş edilirdi. Azərbaycan xalqı dövlətçiliyini itirmək təhlükəsi fonunda fəlakətlər və tüğyanlar burulğanında məhv olmaq üzrə idi. Bütün bunlardan isə çıxış yolu tapmaq lazım idi. Xalqın fenomen Liderə ehtiyacı varıydı və O, HEYDƏR ƏLİYEV idi!

Bəli, bu, Ulu Öndər Heydər Əliyev ömrünün yeni bir qəhrəmanlıq tarixi idi. Vətənini və xalqını sonsuz məhəbbətlə sevən, andına, əqidəsinə sadiq olan, qətiyyəti, inamı, müdrikliyi ilə milyonları öz ətrafında birləşdirməyi bacaran, hadisələri düzgün qiymətləndirib, reallıqlardan lazımi nəticə çıxaran Ulu Öndər Heydər Əliyev kimi vətənpərvər insan, siyasətçi yalnız bu tarixi yarada və yaza bilərdi. Məhz Onun ikinci dəfə hakimiyyətə gəlişi xalqı və dövləti bəlalardan qurtarmaqla yanaşı, yeni, müasir dövlətçilik təməlinin əsaslarını və yüksəlişini qoydu. Bu mənada, onu da vurğulamaq istərdim ki, Ulu Öndər Heydər Əliyev fəaliyyətinin 1993-2003-cü illəri də bir ömrün qızıl salnaməsidir. Azərbaycanı daimi müstəqil, azad və demokratik ölkə kimi görmək istəyən dahi şəxsiyyətin öz məqsədlərini uğurla həyata keçirdiyi illərin unudulmaz səhifələridir. Ulu Öndər Heydər Əliyev milli dövləti idarə etməyin beynəlxalq siyasi sistemlə ideal bağlılığını tapa bilən müstəsna siyasət ustalarındandır. Onun Azərbaycan dövlətçiliyi praktikasındakı bu nailiyyəti, formalaşdırdığı siyasi idarəetmə sistemində bu qaynaq məqamının tapılması - Onun siyasi kursunun uğurla davam etdirilməsinin ən başlıca reallıqlarındandır.

Azərbaycanda siyasi hakimiyyətin Ulu Öndər Heydər Əliyevin yaratdığı dövlətçilik təməli üzərində inkişaf etdirilməsi və möhkəmləndirilməsi zərurəti üzərində düşünərkən, təsdiqini tapmış belə bir həqiqəti dərk edirik ki, Heydər Əliyevin siyasi uzaqgörənliyinin zirvəsi, Onun özündən sonra siyasi kursunu hamıdan yaxşı davam etdirərək, Azərbaycanın müstəqilliyini hamıdan yaxşı qoruya biləcək, dövlətimizin inkişafını hamıdan yaxşı təmin edəcək yeni dövrün Liderini - İLHAM ƏLİYEVİ yetişdirməsi olmuşdur.

Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın istər daxili, istərsə də xarici siyasətində əldə edilən hər bir uğur Ulu Öndər Heydər Əliyevin zəkasının təcəssümü, Onun irsən qoyub getdiyi milli tərəqqi ideyalarının təzahürüdür. Onun 2003-cü ildə prezidentlik fəaliyyətinə başlaması Azərbaycanın tərəqqi və inkişaf yolu ilə irəliləməsində yeni mərhələ olmuşdur. Məhz o vaxtdan başlayaraq, respublikada demokratikləşmə prosesləri genişlənmiş, ölkəmizin dünyaya transformasiya proseslərinə inteqrasiyası daha intensiv xarakter kəsb etmiş, milli iqtisadiyyatın daha da inkişafı üçün mühüm sosial-siyasi baza yaranmışdır. Ulu Öndər Heydər Əliyevin siyasət məktəbinin layiqli yetirməsi olan Prezident İlham Əliyevin böyük siyasətdə atdığı inamlı addımlar sayəsində Azərbaycanda təkcə sosial-iqtisadi sistemdə deyil, həm də siyasi və ictimai təsisatlarda əsaslı yeniləşmələr olmuş, səmərəli intensiv islahatlar aparılmışdır. Prezident İlham Əliyev vurğulayıb: "Bizim təcrübəmiz onu göstərir ki, Azərbaycanın seçdiyi yol düzgün yoldur. İqtisadi, siyasi və sosial islahatların paralel şəkildə aparılması Azərbaycanı hərtərəfli inkişaf etdirir, ölkəmiz üçün çox lazım olan sabitliyi möhkəmləndirir, ictimai-siyasi vəziyyətə müsbət təsir göstərir".

Beləliklə, biz bir daha əminliklə deyə bilərik ki, əldə eidlən inkişaf və tərəqqi müstəqil Azərbaycan uğrunda və Dahi Öndər Heydər Əliyevin ölməz ruhu qarşısında fədakarlıqla çalışmağın nəticəsidir. Bizlər bu faktoru əsas götürərək, Azərbaycanımızın çiçəklənməsi naminə Ulu Öndər Heydər Əliyev ideyalarının layiqli davamçısı Prezident İlham Əliyevin ətrafında daha da sıx birləşəcəyik.

***NƏRİMAN ƏLİYEV,***
***Milli Məclisin deputatı***

# Turizmin inkişafı ölkə iqtisadiyyatına böyük gəlir gətirir

*Həri il olduğu kimi, artıq turist ölkəsi kimi tanınan Azərbaycanda yay turizm mövsümünə ənənəvi olaraq start verilir. İyunun 15-dən sentyabrın 15-dək davam edəcək yay turizm mövsümündə ölkəmizə gələn turistlərin sayında ciddi artımın gözlənilməsi bir sıra amillərə söykənir. Ölkəmizdə tərəqqi və modernləşmənin vəhdət təşkil etdiyi zamanda, turizmin müxtəlif növlərinin inkişaf etdirilməsi, müasir turizm infrastrukturun yaradılması sahəsində məqsədyönlü işlər görülüb. Son illər ərzində ölkəmizdə turizmin təşviqi ilə bağlı görülən işlər, aparılan islahatlar, qəbul edilən dövlət proqramları, normativ-hüquqi bazanın təkmilləşdirilməsi dövlətin bu sahəyə diqqətini bir daha sübut edir.*





Turizmin sosial-iqtisadi inkişafda aparıcı qüvvəyə çevrilməsi gəlirlərin artmasında, sektorla bağlı infrastrukturun qurulmasında, yeni iş yerlərinin yaradılmasında özünü göstərir. Eyni zamanda, Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə təsdiq edilən regionlarının sosial-iqtisadi inkişafı ilə bağlı dövlət proqramları əsasında turizm sahəsi üzrə bəndlərinin tələbləri çərçivəsində sahibkarlığın inkişafı üçün kreditlər ayrılıb, turizm obyektlərinin inşasının dəstəklənməsi, bir sıra hüquqi sənədlərin hazırlanması sahəsində işlər görülüb.

Hazırda bölgələrdə ən müasir səviyyədə hotellər tikilir. Şimal-qərb zonasında - Şamaxıda, Qəbələdə, Şəkidə, Qubada və başqa məkanlarda müasir tələblərə cavab verən otellər inşa edilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dediyi kimi,



“Turizmin inkişafı ilə bağlı böyük addımlar atılmışdır. Xüsusilə, bölgələrdə bir neçə beşulduzlu otel istifadəyə verilmişdir. Yeni turizm mərkəzləri açılır. Azərbaycanın turizm potensialı artıq ölkəmizin inkişafına, xalqımızın rifah halının yaxşılaşmasına xidmət göstərir. Əminəm ki, Azərbaycan vətəndaşları getdikcə daha çox ölkə daxilində istirahətə üstünlük verəcəklər. Çünki Azərbaycanda yaradılan imkanlar dünya səviyyəsindədir. Bunu bizim vətəndaşlar da, xaricdən gələn turistlər də qeyd edirlər”. Bütün bunlar, əlbəttə ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə turizm sektoruna ayırdığı diqqətin nəticəsidir.

Dünya təcrübəsində müalicəvi əhəmiyyəti olan və əsrarəngiz mənzərəyə malik yerlərə turistləri cəlb etmək üçün turlar təşkil olunur, bu yerlərdə müalicə müəssisələri və kurortlar inşa edilir. Ölkəmizdə də müalicə-sağlamlıq turizminin inkişafı üçün də təbii ehtiyatlar baxımından hər şey var. Naftalanın müalicəvi nefti, Naxçıvanın duz mağaraları, Abşeron göllərinin müalicəvi palçıqları və suları, Lənkəranın, Gədəbəyin mineral suları və s. Azərbaycanın səhiyyə turizminin geniş şəkildə dünya məkanına çıxarılmasında əsas faktorlardır. Palçıq vulkanları ərazilərinin böyük turizm potensialı var.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tövsiyələrinə uyğun olaraq, son illər ölkəmizin turizm potensialının inkişaf etdirilməsi, müasir turizm infrastrukturunun yaradılması, mövcud turizm potensialının beynəlxalq aləmdə tanıdılması, turizmin müxtəlif növlərinin inkişaf etdirilməsi istiqamətlərində çoxsaylı tədbirlər davam etdirilir. Görüləsi işlər hələ olsa da, amma bu sahədə artıq kifayət qədər böyük işlər görülüb. Azərbaycan iqtisadiyyatına neft sektorundan gələn gəlirin bərabərində, eləcə də, ondan daha artıq bir şəkildə gəlir gətirə biləcək turizmin inkişafına ayrılan diqqətin və görülən işlərin nəticəsidir ki, ölkəmizə gələn turistlərin sayında artım nəzərə çarpacaqdır. Statistik rəqəmlərə diqqət yetirsək, görərik ki, ötən ilin may ayında ölkəmizə 174 min turist gəlibsə, bu ilin mayında bu rəqəm 211 mindir. Ötən ilin 5 ayı ilə müqayisə etsək, tamamilə fərqli rəqəmi görmüş olacağıq. Belə ki, ötən ilin 5 ayı ərzində ölkəmizə gələn turistlərin sayı 768 min nəfəri təşkil edib. Cari ilin 5 ayında isə 956 min turist ölkəmizə səfər edib. Təbii ki, statistik rəqəmlər ölkəmizdə turizmin inkişafı üçün bütün imkanların mövcudluğuna dəlalət edir. Azərbaycanın turizm sənayesinin inkişafı üçün zəngin ehtiyatların, ölkənin əlverişli iqtisadi-coğrafi mövqeyə malik olması, sabitlik və əmin-amanlığın hökm-sürməsi də bu amillər sırasındadır. Dövlət başçısı çıxışlarının birində bildirib ki, hər bir ölkə, xüsusilə, Azərbaycan kimi belə gözəl yerlərə, təbii sərvətlərə malik olan bir ölkənin mütləq turizmi inkişaf etdirməlidir: “Çünki bu, daimi gəlir mənbəyidir. Təbii sərvətlər, neft, qaz - bunlar tükənən sərvətlərdir. Ölkəmizin dayanıqlı inkişafı üçün daim gəlir gətirən sahələr mütləq inkişaf etməlidir. Onların içərisində turizm xüsusi yer tutur”.

*Nəzakət ƏLƏDDİNQIZI*



## Nala-mıxa döyəcləyən qondarma siyasətçilər

RƏFİQƏ

*Son günlər dağıdıcı müxalifət düşərgəsinə diqqət yetirsək, özlərini “müxalifətçi” hesab edənlərin müxalifətçilik prinsipindən uzaq olduqlarını görmək olar. Bu bədbəxtlər elə zənn edirlər ki, hakimiyyətə qarşı böhtan atmaq, ağa qara demək, satqınçılıq etmək müxalifətçi olmaqdır. Bu məkan, bütövlükdə “devalvasiya”ya uğrayıb. Bu müxalifət qiymətdən düşən pullar kimi ayaqlar altına səpələniblər. Siyasətlə məşğul olanları isə həddindən artıq çoxdur, ancaq onlar arasında siyasətin özü yoxdur. Özlərini siyasətçi adlandıran bu adamların hansı siyasətlə məşğul olduqları da cavabsız sualdır. Məsələn, söz düşəndə, deyirlər ki, filankəs siyasətçidir, filan partiyanın sədridir və ya funksioneridir. Ancaq bu adamların siyasətlərinin nədən ibarət olduğunu, siyasət adına nə etdiklərini müşahidə etmək mümkün olmur.*

### İkiüzlü müxalifətin ikili “standartı”

Bu siyasi böhran daha çox müxalifət düşərgəsində hiss olunur. Bu düşərgədə bir-birinə səmimi olan iki siyasətçi belə tapmaq mümkün deyil. Çünki ikiüzlülərin ikili “standart”ları buna imkan vermir. Belə ki, bir-birinə nifrət edən, düşmənçilik münasibətində olan müxalif “siyasətçilər” kifayət qədərdir. Hətta onlarla “siyasətçi”nin adlarını sadalamaq olar ki, bir-birilərinə salam verərkən, qarşı tərəfə münasibətdə beyinlərindən bir neçə mərtəbə söyüş keçirməkdən özlərini saxlaya bilmədikləri qətiyyən şübhə doğurmur.

Təbii ki, belə neqativ münasibətlər sistemiylə yüklənmiş siyasi düşərgə uğur qazana bilməz. Ən pisi də odur ki, müxalif siyasi düşərgə indiki fəaliyyətsizlik keyfiyyəti ilə artıq ölkənin gələcəyi üçün kifayət qədər ciddi problemə çevrilməyə başlayıb. Onların xarici qüvvələrə işləmələri, qrant üçün didişib-savaşmaları buna sübut ola bilər.

Artıq müxalifətin olmaması bir həqiqətdir və bu reallığın etiraf edilməsinin vaxtı da çoxdan çatıb. Hətta etiraf edilməsə belə heç nə dəyişməyəcək. Siyasət müxalifət düşərgəsini çoxdan tərk edib. Ona görə də, bu düşərgədə təmsil olunan qondarma siyasətçilərin nala-mıxa döyəcləmələri də dəyirman daşının çaqqıltısından heç nəyi ilə fərqlənmir...

# Azərbaycanda dövlətçiliyin möhkəmlənməsi və demokratik prinsiplərin bərqərar olması Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır

***Dünən Yeni Azərbaycan Partiyasının Şəmkir rayon təşkilatı 15 İyun Milli Qurtuluş Günü münasibəti ilə Düyərli kənd 1 saylı məhəlli ilk partiya təşkilatında tədbir keçirib. Toplantı iştirakçıları ilk öncə Ümummilli Lider Heydər Əliyevin əziz xatirəsini 1 dəqiqəlik sükutla yad ediblər.***





YAP Şəmkir rayon təşkilatının sədri Fəxrəddin Vəliyev tədbiri giriş sözü ilə açaraq, 15 İyun Milli Qurtuluş Günü münasibətilə 1993-cü ilin iyun hadisələrindən danışıb, Ulu Öndər Heydər Əliyevin gərgin əməyi nəticəsində Azərbaycanın parçalanmaq təhlükəsindən qurtulduğunu, əmin-amanlığa və siyasi sabitliyə nail olunduğunu diqqətə çatdırıb. Vurğulanıb ki, Qurtuluş Günü inkişafın başlanğıcı, əhalinin yüksəlişinin əsası qoyulan həlledici gündür. “Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə dönüşü hər bir Azərbaycan vətəndaşının həyatında müsbət dəyişikliyə səbəb olan xoşbəxt gələcəyin açarıdır”-deyə qeyd edən təşkilat sədrinin sözlərinə görə, məhz bu baxımdan, Qurtuluş Günü Azərbaycanın həyatında tarixi dönüş günüdür və ölkənin ictimai-siyasi həyatında açılmış yeni səhifədir.

Tədbirdə çıxış edən YAP Şəmkir rayon təşkilatı sədrinin müavini Məcid Şıxlınski isə qeyd edib ki, 1993-cü il iyunun 15-də Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçilib və bu seçim Azərbaycan dövlətçiliyinin və xalqının öz müstəqilliyini qoruyub-saxlanmasına zəmin yaradıb: “Beləliklə, 15 iyun tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu. Xalqın tələbi ilə Milli Məclis 1997-ci ilin iyununda bu günü bayram elan etdi”.

YAP Şəmkir rayon təşkilatı sədrinin müavini Ayaz İbrahimov isə çıxışında qeyd edib ki, Heydər Əliyevin 1993-cü ildə Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrdə dönüş yaradıb, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlanıb: “Heydər Əliyevin həyata keçirdiyi təxirəsalınmaz tədbirlərin nəticəsi kimi, bir tərəfdən, Milli Ordunun formalaşdırılması, Azərbaycanın milli mənafelərini qorumağa qadir nizami silahlı qüvvələrin yaradılması, torpaqlarımızın müdafiə olunması ilə bağlı mühüm addımlar atılmış, digər tərəfdən, atəşkəsə nail olmaq üçün bütün siyasi və diplomatik vasitələr işə salınmış, bunun da nəticəsində, 1994-cü ilin mayında ölkəmiz üçün həyati əhəmiyyət kəsb edən atəşkəsə nail olunub”.

Sonda YAP Şəmkir rayon təşkilatı sədrinin müavini Aybəniz Nəsibova, Düyərli kənd 2 saylı tam orta məktəbin müəllimi, YAP Qadınlar Şurası İdarə Heyətinin üzvü İlhamə İbrahimova, Düyərli kənd 1 saylı tam orta məktəbin müəlliməsi Sədaqət Ələsgərova çıxışlarında bildirdilər ki, Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında aparılmış son dərəcə gərgin fəaliyyət nəticəsində Azərbaycan xalqının taleyi ilə pərdəarxası oyunlara, siyasi anarxiya və eksperimentlərə son qoyulmuş, ölkədə cinayətkarlığın qarşısı tam alınmış, bütün qanunsuz silahlı dəstələr ləğv olunmuşdu ki, bunlar da, bütövlükdə, Azərbaycanda dövlət quruculuğu prosesinin uğurla aparılması üçün şərait yaratmış oldu.

***Rövşən NURƏDDİNOĞLU***

# Azərbaycanın inkişafı Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır

## *YAP Astara rayon təşkilatında şura iclası keçirilib*

***Dünən YAP Astara rayon təşkilatında şura iclası keçirilib. Yığıncağı giriş sözü ilə YAP Astara rayon təşkilatının sədri Firudin Əhmədov açaraq görülən işlər və qarşıda duran vəzifələrdən danışmışdır. Bildirmişdir ki, bugünkü firavan və güclü Azərbaycan dövləti Ulu Öndər Heydər Əliyevin böyük zəhməti və uzaqgörən siyasəti nəticəsində əldə olunub: “Bu günlər xalqımız 15 İyun Milli Qurtuluş Gününü təntənəli şəkildə qeyd edəcək.***



Artıq respublikamızın hər yerində, o cümlədən də, Astara rayonunda bayram tədbirlərinə başlanılıb. 1993-cü ildə baş verən ağır ictimai-siyasi hadisələr ölkəmizi dövlət müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə qoymuşdur. Ölkəni bu ağır vəziyyətdən, 1993-cü ildə xalqın istəyi ilə yenidən hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyev qurtardı, xalqın sabaha olan inamını özünə qaytardı və nəticədə qüdrətli Azərbaycan dövlətini qura bildi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, “Belə bir çətin anda və çətin dövrdə xalqımızın müdrikliyi bir daha özünü göstərdi. Xalqın təkidi və tələbi ilə Ümummilli Liderimiz Heydər Əliyev Azərbaycana qayıtdı, xalq Onu Prezident seçdi və ondan sonra ölkəmizin inkişaf dövrü başlandı. Bütün xoşagəlməz meyillərə son qoyuldu, sabitlik, ictimai asayiş bərqərar olundu və qeyri-qanuni silahlı dəstələr tərksilah edildi. Bir sözlə, Azərbaycan inkişaf yoluna qədəm qoydu”.

Təşkilatın sədri çıxışında onu da bildirmişdir ki, bu gün Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf kursuna uyğun olaraq ölkədə sənayeləşmə siyasəti uğurla davam etdirilir: “Yeni və müasir texnologiyalara əsaslanan elektrotexnika, əlvan metallurgiya, maşınqayırma və kənd təsərrüfatı sistemi yaradılır. Quruculuq-abadlıq işləri həyata keçirilir. Ölkənin dinamik sosial-iqtisadi inkişafında Ulu Öndər Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyasının geniş və məqsədyönlü fəaliyyəti də mövcuddur”.

Şuranın toplantısında rayon ağsaqqalları Hamlet Əliyev, Seyran Babayev və digərləri çıxış edərək, Ümummilli Lider Heydər Əliyevin siyasi xəttini uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə, o cümlədən, Astara rayonunda sosial-iqtisadi inkişaf sahəsində qazanılmış uğurlardan və qarşıda duran vəzifələrdən danışıblar. Rayon əhalisini, o cümlədən, Azərbaycan xalqını qarşıdan gələn 15 İyun Qurtuluş Günü münasibət ilə təbrik ediblər.

***RƏFİQƏ***

# Bakı-Sumqayıt-Bakı elektrik qatarlarının hərəkət cədvəlində dəyişiklik ediləcək

Dəmir yollarının Biləcəri-Keşlə mənzilinin yolunda aparılan təmir işləri ilə əlaqədar olaraq, iyunun 11-dən 25-dək on dörd gün müddətində Bakı-Sumqayıt-Bakı elektrik qatarlarının hərəkət cədvəlində dəyişiklik ediləcək. “Azərbaycan Dəmir Yolları” QSC-nin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, hər şənbə, bazar və bayram günləri Sumqayıtdan saat 7.00-da, Bakıdan isə saat 8.15-də yola düşən 6002/6001, Sumqayıtdan saat 7.20-də, Bakıdan isə saat 9.00-da yola düşən 6004/6003 nömrəli elektrik qatarları hərəkətdə olmayacaq. Bakı-Sumqayıt-Bakı marşrutu ilə hərəkət edən elektrik qatarlarının hərəkət cədvəlində dəyişikliklər olduqca KİV vasitəsilə vətəndaşlara məlumat veriləcək.

# Ölümlə nəticələnən yol-nəqliyyat hadisəsi törədərək qaçan sürücü tutulub

Samux rayonunun polis və prokurorluq əməkdaşları tərəfindən həyata keçirilmiş təxirəsalınmaz istintaq və əməliyyat-axtarış tədbirləri nəticəsində rayon ərazisində ölümlə nəticələnən yol-nəqliyyat hadisəsini törədərək qaçan sürücü müəyyənləşdirilərək istintaqa cəlb olunub. Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iyunun 7-də saat 23 radələrində Samux şəhəri ərazisində naməlum avtomobilin sürücüsünün yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını kobud surətdə pozaraq piyada - 1970-ci il təvəllüdlü Cümşüd Zeynalovu vurub hadisə yerindən qaçması və sonuncunun aldığı xəsarətlərdən orada ölməsi faktına görə rayon Polis Şöbəsinin İstintaq Qrupunda Cinayət Məcəlləsinin 263.2-ci (yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda) və 264-cü (yol nəqliyyat hadisəsi yerindən qaçma) maddələri ilə cinayət işi başlanıb.

Aparılmış təxirəsalınmaz istintaq-əməliyyat tədbirləri nəticəsində yol-nəqliyyat hadisəsinin “QAZ-31” markalı, 20-CZ-593 dövlət qeydiyyat nişanlı avtomobilin sürücüsü Mirzəyev Sahib Həmzə oğlu tərəfindən törədilməsində əsaslı şübhələr olduğundan o, tutularaq istintaqa cəlb olunub. Hazırda cinayət işi üzrə istintaq tədbirləri davam etdirilir.

# Əfqan Muxtarlı və onun ətrafındakı antimilli ünsürlər erməni lobbisinin maşasıdır



Azərbaycanın gündən-günə güclənməsi, beynəlxalq aləmdə nüfuzunun artması erməni lobbisini və anti-Azərbaycan dairələrinin, onların təsirində olan xarici KİV-lərin və bəzi qərəzli təşkilatların ciddi narahatlığına səbəb olur. Elə Ermənistan mediasının Gürcüstandakı antimilli ünsürlərinin, konkret olaraq, Əfqan Muxtarlını cidd-cəhdlə müdafiə etmələri, ölkəmizin nüfuzunu ləkələməyə cəhd etmələri, habelə Gürcüstan hakimiyyətinə təzyiq göstərməyə çalışmaları bunu təsdiqləyir. Bütün bunların fonunda isə təsdiqlənən məsələ ondan ibarətdir ki, Əfqan Muxtarlı və onun ətrafındakı antimilli ünsürlər erməni lobbisinin maşasıdır.

Erməni lobbisi ilə birlikdə bu antimilli ünsürlərin əsas məqsədi Azərbaycanla Gürcüstan arasındakı dostluq, əməkdaşlıq və mehriban qonşuluq münasibətlərinə zərbə vurmaqdır. Məhz buna görə də üzdəniraq qüvvələr AXCP sədrinin müavini Gözəl Bayramlı, Ə.Muxtarlı və onların aid olduqları şəbəkədən istifadə edərək, yüksək səviyyəli Azərbaycan-Gürcüstan münasibətlərinə kölgə salmaq istəyirlər. Lakin unudurlar ki, iki ölkə arasındakı əlaqələrin təməlində xalqlarımızın birliyi, birgə tariximiz və yüksək səviyyəli dostluq münasibətləri dayanır. Məhz belə yüksək səviyyəli münasibətlər sayəsində Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars kimi qlobal enerji və nəqliyyat-kommunikasiya layihələri Azərbaycanın siyasi iradəsi, tərəfdaş ölkə kimi Gürcüstanın da dəstəyi ilə həyata vəsiqə aldı, "Cənub Qaz Dəhlizi" isə uğurla reallaşdırılır.

Siyasi ekspertlər də qeyd edir ki, Gürcüstandan Azərbaycana qanunsuz olaraq keçməyə görə saxlanılan Ə.Muxtarlının həbsi ətrafında yaranmış vəziyyət Azərbaycanla Gürcüstan arasındakı sıx münasibətlərə təsir göstərə bilməz. Məsələn, Gürcüstan Strateji və Beynəlxalq Tədqiqatlar Fondunun Avropa İttifaqı Tədqiqatları Mərkəzinin direktoru, nüfuzlu ekspert Kaxa Qoqolaşvili bildirib: "Düşünmürəm ki, bu cür məsələlər Azərbaycanla Gürcüstan arasında mövcud münasibətlərə hansısa təsir göstərə bilsin. Çünki Azərbaycanla Gürcüstan qarşılıqlı əməkdaşlığa çox böyük maraq göstərir və bu cür kiçik hadisələr bu əməkdaşlığa hansısa təsir göstərə bilməz. Əlbəttə, həm ölkə daxilində, həm də xaricində bəzi qüvvələr var ki, Azərbaycanla Gürcüstan arasındakı sıx münasibətləri korlamağa və belə hadisələrdən öz siyasi məqsədləri üçün istifadə etməyə çalışırlar. Azərbaycan və Gürcüstan hökumətləri bunu yaxşı bilir və bu cür hadisələrin ikiərəfli münasibətlərə xələl gətirməsinə imkan verməzlər".

Ekspert bildirib ki, strateji tərəfdaş olan Azərbaycan-Gürcüstan əlaqələrinin böyük tarixi var və bu münasibətlər bu gün bir çox sahələrdə inkişaf edir. Bugünkü geosiyasi vəziyyət də Azərbaycanla Gürcüstanın sıx əməkdaşlıq etməsini tələb edir. Azərbaycan Gürcüstana ən iri investisiya qoyan ölkələrdən biridir. Bu, Gürcüstan iqtisadiyyatı üçün çox vacibdir. Eyni zamanda, iki ölkə arasında səmərəli hərbi əməkdaşlıq mövcuddur. Yəni Azərbaycanla Gürcüstanın əməkdaşlığına alternativ olan bir amil yoxdur.

Bu gün də iki dost ölkə arasında bütün sahələr üzrə əlaqələr getdikcə güclənir. Hazırda Azərbaycan şirkətləri Gürcüstanın infrastruktur, enerji və nəqliyyat sektorlarına böyük həcmdə sərmayə qoyurlar. Azərbaycan şirkətləri Gürcüstan büdcəsinə ən çox vergi ödəyən müəssisələr arasında mühüm yer tuturlar. Prezident İlham Əliyev 2015-ci il noyabrın 5-də Gürcüstana rəsmi səfəri zamanı Gürcüstan Prezidenti Georgi Margvelaşvili deyib ki, Azərbaycan hər zaman Gürcüstana həm iqtisadi, həm də humanitar sahədə dəstək verir: "Hər bir gürcü yaxşı bilir ki, Azərbaycan bizə hansı yardımları göstərir. Bunlara misal olaraq uşaq bağçaları, kilsələr, idmançılarla bağlı xeyriyyə layihələrinin həyata keçirilməsinə verilən dəstəyi və köməyi qeyd edə bilərik. Bu əməkdaşlığa görə Azərbaycana öz təşəkkürümüzü bildiririk. Gürcü xalqı da hər zaman dost Azərbaycan xalqının yanında olacaq".

Eyni zamanda, Gürcüstanda yaşayan azərbaycanlılar və Azərbaycanda yaşayan gürcülər də bu sahədə əlaqələrin inkişafında əsl körpü rolunu oynayaraq xalqlarımız və ölkələrimiz arasında mövcud dostluq və əməkdaşlıq münasibətlərinin daha da möhkəmlənməsinə böyük töhfələr verirlər.

***"Səs" Analitik Qrupu***

# İndoneziyanın aparıcı "GATRA" jurnalında Bakı Limanı haqqında məqalə dərc edilib


Tantangan Akselerasi Pelabuhan Priok

İndoneziyanın aparıcı "GATRA" həftəlik jurnalının müxbiri Andhika Dinata Bakı Beynəlxalq Dəniz Ticarət Limanı haqqında məqalə dərc edib. "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-nin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, jurnalda mayın 7-12-də İndoneziyanın Bali şəhərində keçirilən Beynəlxalq Limanlar Assosiasiyasının illik toplantısı çərçivəsində Bakı Limanı və İndoneziya Liman Korporasiyası arasında imzalanan Anlaşma Memorandumu haqqında söz açılıb. Qeyd olunub ki, bu Memorandum çərçivəsində tərəflər təcrübə mübadiləsi, liman əməliyyatları və digər sahələrdə əməkdaşlıq edəcəklər. Bakı Limanının baş direktoru Taleh Ziyadov qeyd edib ki, dünyada ən çox adalara sahib olan İndoneziya dünya dəniz ticarətində mühüm rol oynayır. Bu baxımdan İndoneziya Limanlarının təcrübəsi əvəzolunmazdır. Taleh Ziyadov Bakı limanı və Ələt qəsəbəsində qurulmaqda olan Azad Ticarət Zonası (ATZ) haqqında məlumat verərək qeyd edib ki, ölkənin əlverişli coğrafi mövqeyindən faydalanması, regional nəqliyyat təşəbbüslərinin reallaşdırılması, ATZ-də əlavə dəyər yaradan sahələrin qurulması Prezident İlham Əliyevin düşünülmüş siyasətinin mühüm hissəsidir.

Bundan başqa, məqalədə Beynəlxalq Limanlar Assosiasiyasının 2018-ci ilin mayın 8-11-də Bakıda keçiriləcək Dünya Limanlarının Konfransından da bəhs olunur. Qeyd olunub ki, 90 ölkədən Sidney, Los-Anceles, Hamburq, Panama, Cəbələli kimi 180-dən çox böyük limanları öz ətrafında birləşdirən qurumun Bakıda toplantısı region üçün mühüm hadisədir. Keçmiş MDB məkanında Dünya Limanları Konfransının ilk dəfə Azərbaycanın paytaxtında baş tutması onun beynəlxalq ticarət dəhlizlərində, xüsusən "Bir Kəmər - Bir Yol" təşəbbüsündə artan rolu ilə izah olunur. Qeyd edək ki, Bakıdan sonra Dünya Limanlarının Konfransı Çinin Quanjou şəhərində keçiriləcək.

# Son illər ölkə ərazisində 957 subartezian quyusu qazılıb



Ölkəmizdə bütün sahələrdə olduğu kimi, meliorasiya və su təsərrüfatı sahəsində də mühüm tədbirlər həyata keçirilir. Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə ayrılmış vəsait hesabına son üç-dörd ildə əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, əhalinin içməli suya olan tələbatının ödənilməsi üçün ölkə ərazisində 957, o cümlədən Qax rayonunda 39 subartezian və artezian quyusu qazılıb. Azərbaycan Prezidentinin iyunun 5-də imzaladığı növbəti Sərəncama uyğun olaraq, bu il ölkədə daha 150 subartezian quyusu qazılacaq. AZƏRTAC xəbər verir ki, bu faktları "Meliorasiya və Su Təsərrüfatı" ASC sədrinin müavini Rafiq Aslanov Qaxda jurnalistlərə müsahibəsində səsləndirib.

Cəmiyyətin rəsmisi bildirib ki, əkin sahələrinin ildən-ilə genişləndirilməsi nəticəsində son illər suvarma suyuna tələbat da xeyli artıb. Son üç ildə respublikada pambıq əkini sahələri 18 min hektardan artırılaraq 136 min hektara çatdırılıb. Rafiq Aslanovun bildirdiyinə görə, Azərbaycanda kənd təsərrüfatı məhsullarının 92 faizi suvarılan torpaqlarda yetişdirilir. Hazırda ölkə ərazisində 1 milyon 386 min hektar torpaq sahəsində suvarma işləri həyata keçirilir. O cümlədən, Qax rayonunda suvarılan torpaqların ümumi sahəsi 19 min 700 hektar təşkil edir. Qax rayonu ərazisindən axan dağ çaylarının hamısının sel gətirici çaylar olduğunu vurğulayan cəmiyyətin sədr müavini yaşayış məntəqələrini və əkin sahələrini sel sularından qorumaq üçün son on il ərzində rayon ərazisində 17 kilometr uzunluğunda beton bəndlərin inşa edildiyini diqqətə çatdırıb. "Görülmüş qabaqlayıcı tədbirlər nəticəsində sellərin yaratdığı fəsadlar minimuma endirilib, sel-suların maneəsiz axıdılması təmin edilib, yaşayış məntəqələri və əkin sahələri seldən etibarlı mühafizə olunub", - deyə Rafiq Aslanov bildirib.

# Britaniya: parlament seçkilərində 25 ilin ən yüksək iştirak səviyyəsi qeydə alınıb



Böyük Britaniyada keçirilən parlament seçkilərində 25 ilin ən yüksək iştirak səviyyəsi qeydə alınıb - səsvermədə 32 milyondan çox seçici iştirak edib. AZƏRTAC "Daily Telegraph" qəzetinə istinadla xəbər verir ki, yalnız 1992-ci ildə keçirilən seçkilərdə iştirak səviyyəsi bundan yüksək olub - 33,6 milyon nəfər. Cari seçkinin nəticəsinə əsasən, britaniyalıların 68,7 faizi səsvermədə iştirak edib. Bu, 2015-ci ildə keçirilən ümumi seçkilərdən 2 faiz çoxdur.

Qeyd edək ki, Böyük Britaniyada parlament seçkiləri "Brexit" üzrə danışıqlar astanasında siyasi Londonu birləşdirmək istəyən Baş nazir Tereza Meyin təşəbbüsü ilə keçirilib. Hazırda 650 dairədən 649-da bülletenlərin hesablanması başa çatıb. Seçkinin nəticəsinə görə hələlik mühafizəkarlar 318, leyboristlər 261, liberal-demokratlar 12, Şotlandiya Milli Partiyası - 35, digər partiyalar 23 mandat qazanıb. Beləliklə, partiyaların heç biri müstəqil şəkildə kabineti formalaşdırmaq üçün lazım olan səsləri toplaya bilməyib.

# Ermənistan yeni etiraz dalğaları mərhələsində

## Xalq-hakimiyyət qarşıdurması

***"Səs" qəzeti erməni KİV-lərinə istinadən xəbər verir ki, 2016-cı ilin iyul ayında siyasi həbslərə etiraz olaraq Yerevanda post-patrul alayını ələ keçirən 18 nəfər barəsində açılan cinayət işi məhkəməyə göndərilib. Ermənistanın Baş Prokurorluğunun bununla bağlı yaydığı məlumat etirazlara səbəb olub. Bu səbəbdən, iyunun 8-dən Yerevanın Azadlıq meydanında etiraz aksiyasına başlanılıb.***

Erməni mətbuatının yazdığına görə, etirazçılar həbs olunan fəalların azadlığa buraxılmayınca aksiyalarını davam etdirçəcəklərini bildiriblər. "Təsis parlamenti" hərəkatının üzvü Arutyun Aslamazyan çıxışında silahlı qrupun üzvlərinin tezliklə azad olunaraq yenidən mübarizəyə qatılacaqlarına ümid etdiyini bildirib. Aksiya iştirakçıları həbs edilmiş siyasi partiya fəallarının azadlığa buraxılmasını da tələb ediblər. Armavir şəhərində də yüzlərlə sakin həbs olunmuş etirazçıların müdafiəsi üçün aksiya keçirib. Sakinlər Armavir-Yerevan yolunu bağlayıblar.



### Cəmiyyətlə hakimiyyət arasında uçurum

Bu səbəbdən, hakimiyyət rəhbərliyinin göstərişi ilə aksiyaların güc yolu ilə dağıdılması davam edir. Bütün ölkə boyu repressiv tədbirlər həyata keçirilir. Bu arada qeyd olunur ki, Ermənistanın müxalif "İrs" Partiyasının sədr müavini, keçmiş deputat Armen Martirosyan kütləvi etirazlara çağırışlara görə həbs olunub. Siyasətçinin qardaşı Arşak Martirosyan bildirib ki, Armen hazırda Ermənistan Milli Təhlükəsizlik Xidmətinin müvəqqəti saxlanma təcridxanasındadır. Erməni mətbuatının məlumatına görə, ölkə üzrə həbs edilənlərin sayı yüzlərlədir. Siyasi ekspertlərin sözlərinə görə, həbslər heç də ölkədə yaşanan vəziyyətin yaxşılığa doğru irəliləməsi deyil, əks-halda yeni yaranacaq xalq hərəkatının qarşısını belə ala bilməyəcək və hakimiyyətə qarşı çıxanların sayı artacaq.

Erməni politoloq Suren Zolyan etiraf edir ki, indi situasiya kökündən dəyişib: "Əgər ötən günlərdə xalqla hakimiyyət arasında hansısa dialoq mümkündüsə, indi bu, əsla baş tutan deyil". Onun sözlərinə görə, ölkədə hakimiyyətin artıq dəyişib, çünki hakimiyyət polisə və qoşunlara əmr verməkdən ibarət deyil: "Yəni ölkədə hakimiyyət olması, əmrlərin yerinə yetirilməsi üçün cəmiyyət iqtidara inanmalıdır. İndi bu inam yoxdur. Ermənistan prezidenti Serj Sarkisyan legitimliyini itirib. Onsuz da, onun belə legitimliyi də yox idi. İndi o, nə xarici siyasəti, nə daxili siyasəti müəyyənləşdirə bilir".



### Mübariz Əhmədoğlu: "İşğalçı ölkənin vətəndaşlarının hakimiyyətə qarşı inamları tükənib"

Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin direktoru Mübariz Əhmədoğlu Ermənistanda baş verənləri Sarkisyanın oyunu hesab edir: "Ermənistanda baş verən hadisələr Sarkisyanın Jerayr Səfilyanın komandası ilə birgə qurduğu oyundur. Həm də Dağlıq Qarabağ münaqişəsi ilə birbaşa əlaqəsi var. Baxın, Serj Sarkisyan Qarabağ danışıqları üçün Sankt-Peterburqa gedərkən, qondarma qurumun rəhbəri Bako Saakyanla görüşdü. İşğal etdikləri beş rayonun qaytarılması və Dağlıq Qarabağ üçün mərhələli danışıqlar məsələsini müzakirə ediblər. O zaman Səfilyan və onun komandası buna etiraz etdi. Sarkisyan da Səfilyan və ona yaxın olan insanların evində axtarış apartdırdı. Bir neçəsini həbs etdirdi. İndi də baş verənlər bunun üstündədir. Görünən odur ki, prezident Sarkisyan Səfilyanın komandası ilə oyun qurub. Məqsəd də odur ki, Putin və Makron Sarkisyandan Dağlıq Qarabağın həlli istiqamətində irəliləyiş barədə heç nə soruşmasın və hesabat istəməsinlər. Soruşsalar da bildirsin ki, ölkə əhalisi buna narazıdır".

M.Əhmədoğlu, həmçinin, Ermənistanda böyük çoxluğun Sarkisyan rejimindən narazı olduğunu da vurğuladı: "Yaşanan olaylar bir daha onu göstərdi ki, işğalçı ölkənin vətəndaşlarının hakimiyyətə qarşı inamları tükənib. Dövlətin onurğa sütunu hesab edilən polisə hücumlar edilir. Bütün bunlar bir daha Ermənistanda demokratiya sahəsində ciddi böhran yaşandığını, bu ölkədə insan hüquqlarının hakimiyyət tərəfindən kobud şəkildə pozulduğunu, söz və fikir azadlığına heç bir məhəl qoyulmadığını göstərir".





### İşğalçı ölkədə siyasi-iqtisadi böhranın miqyası genişlənir

Yeri gəlmişkən, 2016-cı ilin ikinci yarısında BMT-nin ölkələrin demoqrafik proqnozları ilə bağlı hazırladığı məruzədə göstərilir ki, hazırda 3 milyon 18 min nəfər əhalisi olan Ermənistanda bu göstərici 2030-cu ildə 2 milyon 992 min nəfərə, 2050-ci ildə isə 2 milyon 729 min nəfərə qədər azalacaq.

Ermənistan Milli Statistika Xidmətinin əhalinin siyahıya alınması şöbəsinin müdiri Karine Kuyumçuyanın mətbuata verdiyi məlumata görə, son beş ildə ölkə əhalisi 35,9 min nəfər, müstəqillikdən bu günə qədər isə 634,7 min nəfər azalıb. Azalma, əsasən, Yerevan, Lori və Şirak əyalətlərində müşahidə edilib.

Rusiya Federal Miqrasiya Xidmətinin Yerevandakı nümayəndəliyinin yaydığı xəbər də Ermənistanda demoqrafik vəziyyətin acınacaqlı olmasından xəbər verir. Bildirilir ki, bu ilin may ayına olan məlumata görə, hazırda Rusiya ərazisində 472 min Ermənistan vətəndaşı yaşayır. Bununla da, Ermənistan əhalisinin 17,2 faizinin Rusiyada yaşadığı aydın olur. Yeri gəlmişkən, hazırda Ermənistanın 2,9 milyon vətəndaşı var.

Göründüyü kimi, indiki vəziyyətdə Ermənistanda dərin sosial-iqtisadi tənəzzül hakimiyyətlə xalq arasında uçurumu genişləndirməklə yanaşı, sosial gərginliyi də yüksəldir. Ölkənin sosial problemləri aradan qaldırmaq üçün kifayət qədər siyasi və iqtisadi resurslara malik olmaması isə hakimiyyətlə xalq arasında qarşıdurmanı gücləndirir. Elə bu səbəbdən, hakimiyyətin xalq tərəfindən devrilməsi və bunun yaxın zamanda baş verməsi qaçılmaz sayılır.

**A.SƏMƏDOVA**

TƏRS BAXIŞ

# ADP funksioneri cəbhəçiləri təhqir etdi

## Həsrət Rüstəmov: “Küçə uşaqlarısınız!”

***Dağıdıcı müxalifət düşərgəsində qarşılıqlı ittihamlar partiyalararası savaşlarla müşahidə olunmaqda davam edir. Xüsusilə, AXCP ilə Müsavat partiyaları arasındakı uzun illərlə davam edən qarşıdurma hər iki partiya üçün həlli mümkün olmayan problemlər yaradıb. Hətta radikallığa meyilli olmayan bir sıra partiyalar da var ki, onlar zaman-zaman düşərgədəki gündəmi dəyişməyə müvəffəq olurlar.***

Belə partiyalardan biri də Sərdar Cəlaloğlunun sədri olduğu ADP-dir. Buna isə səbəblər yaranıb. Məsələ ondadır ki, son vaxtlar AXCP sədri Əli Kərimlinin sosial şəbəkələrə yerləşdirdiyi saxta profillər və həmin profilləri idarə edən muzdlu gənclər ADP sədrini ittiham edərək, onu təhqir obyektinə çevirir və ələ salırlar. Buna dözməyən digər S.Cəlaloğlunun müavini Həsrət Rüstəmov kərimovçulara qarşı cavab hücumuna keçərək, onları “küçə uşağı”, “nadan”, və “qanmaz” adlandırıb.

### “Bizim kənddə yalnız qanmaz uşaqlar onları hansısa ciddi səbəbdən şilləyə qonaq edən böyüklər gedəndən sonra, öz yaşıdları arasında şeşələnmək üçün söyərdilər”



“Söyüşdən başqa əlindən bir iş gəlməyən tərbiyəsiz və deməli, həm də nadan, başıboş Facebook “qəhrəmanları”na deyirəm ki, söyüş söymək, həm də bunu şəxsiyyətini təhqir etmək istədiyiniz adamın xəbəri olmadan, eşidib görmədiyi bir yerdə etmək, nəinki qəhrəmanlıq deyil, hətta insanlıqdan uzaq bir şeydir. Bizim kənddə yalnız qanmaz uşaqlar onları hansısa ciddi səbəbdən şilləyə qonaq edən böyüklər gedəndən sonra, öz yaşıdları arasında şeşələnmək üçün söyərdilər” - deyə S.Cəlaloğlu bildirib.

### “Bir zibilliyə çəkilin və ürəyiniz istədiyi qədər kimi istəyirsiniz söyün”

H.Rüstəmov qeyd edib ki, S. Cəlaloğlunu çox pis şəkildə təhqir edən cəbhəçi qrup fəaliyyət göstərir. Sözügedən qrup, əsasən, KXCP sədri Mirmahmud Mirəlioğlunu, ADP sədri Sərdar Cəlaloğlunu, “Ümid” sədri İqbal Ağazadəni, Azadlıq partiyasının sədri Əhməd Orucu və digər partiya sədrlərini hədəfə alır. ADP sədrinin birinci müavini qeyd edib ki, söyüşçülərin bir neçəsinin profilinə baxıb: “Onlar “uşaq” olsalar da, yaşları kifayət qədərdirlər. Əməllərinin heç də kişiyə yaraşmadığını qansınlar. Mənim onlara bir sözüm var: əgər siyasəti və qəzetçiliyi peşə seçmisinizsə, bir kənara boylanın, görün, dünyada bu işləri necə görürlər?! Yox, küçə uşağı kimi söyüş söyəcəksinizsə, bunun üçün sosial şəbəkəyə ehtiyac yoxdur, bir zibilliyə çəkilin və ürəyiniz istədiyi qədər kimi istəyirsiniz söyün. Bir də ki, 40 yaşını keçirmiş bir insan kimi deyirəm: yaşca və vəzifəcə böyüklərin işinə qarışmayın. Bu ən yaxşı halda rəhbərinizə yaltaqlıq kimi görünür”.

Beləliklə, görünən budur ki, bu yay da müxalifətdə ciddi qarşıdurmalar səngiməyəcək, əksinə, artacaq. Mövcud vəziyyət isə özlərini 2018-ci ilin prezident seçkilərinə hazırlaşdıqlarını bəyan edən düşərgə təmsilçilərinə yaxşı heç nə vəd etmir.

**R.RƏSULOV**

# Gültəkin Hacıbəyli yenə ortalıqda

## Nankorluq onun xislətindədir



“Milli Şura”nın “primadonnası” Gültəkin Hacıbəyli yenə ortadadır. “Milli Şura”nın mini aksiyalarının başlanmasına rəvac verən G.Hacıbəylinin məqsədi, ilk növbədə, Azərbaycanın beynəlxalq arenadakı yüksək mövqeyinə, yerinə və roluna kölgə salmaqdır. O da sirr deyil ki, ümumiyyətlə, istər “Milli Şura”, istərsə də AXCP, bu sıraya daxil olan G.Hacıbəyli xarici ölkələrdə fəaliyyət göstərən ermənipərəst anti-Azərbaycan meyilli qüvvələrə nökərçilik göstərməklə, mənfəət əldə etmək üçün dəridən-qabıqdan çıxırlar. Bu baxımdan, onlara təklif edilən zamanı və yeri öz təbirlərincə münasib bilmədiklərini deyərək, siyasi şou göstərib mühacir bizneslərinə daha çox adamı cəlb etməyə cəhd göstərirlər.

### Gültəkin Hacıbəyli - bir medalın iki üzü

Bu, o G.Hacıbəylidir ki, hər sifətdə ola bilir. Elə bu yerdə onun “Baxış bucağı” verilişində çıxışı boyu siyasi məhbuslardan, onların çətinliklərindən fikirlər söyləyib ağılsız iddialar irəli sürüb. Jurnalist həmsöhbətinə belə bir sualla müraciət edib: “Gültəkin Hacıbəyli üçün nə dəyişdi ki, hakimiyyətin aktiv təbliğatçısı müxalifətin ən böyük birliyində təmsil olunmağı qərara aldı?” G.Hacıbəyli əvvəlcə suala etiraz edib: “G.Hacıbəyli verilişdən əvvəl özü və “Milli Şura”nın heç nəyə yaramayan sədri Rüstəm İbrahimbəyov barəsində suallar çıxartdırmışdı, demişdi ki, bu sualları vermə, versən də, cavab verməyəcəm, deyəcəm ki, cəmiyyətə bizim mübarizəmiz maraqlıdır-filan... Hə, mən o xanımın “Milli Şura” yaranan ərəfədə müxalifət partiyalarından biri olan KXCP-nin qərargahında, kiçik bir otaqda saatlarla davam edən müzakirələrdə dayanmadan “Ya Rüstəm İbrahimbəyov, ya da yenə Rüstəm İbrahimbəyov”- dediyini də xatırlayıram və suallardan biri onunla bağlı idi: “Müxalifətə indiyədək bir xeyri dəyməyən insanı “Milli Şura”da saxlamaq nəyə lazımdır, sizcə?” Onun fikrincə, verilişdə ancaq müxalifətçi xanımın istəyinə uyğun suallar verilməli idi.

Qeyd olunan bu hadisə də demokratiya libasına bürünən, xalqa demokratik prinsiplərdən dərs keçən, yeri gəldi-gəlmədi iqtidarı tənqid edənlərin əsl mahiyyətini və gerçək simasını bir daha ortaya qoyur. Bu yerdə məşhur bir atalar məsəlini xatırlamasan olmur: utanmasan, oynamağa nə var ki?

Son olaraq qeyd etmək istəyirəm ki, G.Hacıbəyli kimilərin tarix boyu cəmiyyətə qazandırdığı və qazandıracağı heç nə olmayıbdı. Uzun illər bu dövlətin çörəyini yemiş, sonradan əqidəsini 180 dərəcə dəyişən, Vətənindən, dövlətindən üz çevirən şəxsin hərəkətlərinin bir adı var - nankorluq.

**Rəfiqə HÜSEYNOVA**

## Gəncə sakinindən 9 kq narkotik tapıldı



Gəncə şəhərində narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı uğurlu əməliyyat tədbiri keçirilib. SİA-nın bölgə mübirinin verdiyi məlumata görə, şəhər sakini əvvəllər məhkum olunan Arzu Qasımov 9 kiloqram marixuananı 4000 manata satarkən tutulub. Polis həmin şəxs ətrafında istintaq tədbirlərini davam etdirir. Belə ki, Arzu Qasımovun narkotik maddəni kimdən və ya kimlərdən aldığı araşdırılır.

# Dost kimi görünüb, düşmən kimi ayrılmaq...

*Birliklərin parçalanmasından öncə, orada cəmləşən partiyaların özlərinin daxilində baş verən hadisələrə diqqət yetirmək lazımdır*

Hazırkı dövrə qədər dağıdıcı müxalifətdə onlarla birlik və bloklar fəaliyyət göstərsə də, onların heç biri qarşılarına qoyduqları məqsədlərinə nail olmağı bacarmayıblar. Buna baxmayaraq, “liderlər” öz zəifliklərini və xalq tərəfindən dəstək almadıqlarını heç bir vəchlə qəbul etmək, ya da həzm etmək iqtidarında deyillər. Görünür, bu səbəbdən də, müxtəlif ictimai-siyasi hadisələr ərəfəsində qurumlar, birliklər və bloklar yaradaraq yalnız özlərini və ətraflarında olan azsaylı elektoratlarını aldadırlar. Fakt da budur ki, müxalifət partiyaları müxtəlif proseslərin gedişində birliklər və koalisiyalar yaratmağa nail olsalar belə, xalqdan ciddi dəstək almağı bacarmırlar. Yaradılan birliklər prosesin hansısa mərhələsində dağılır və fiaskoya uğrayır.

### Müsavat və AXCP də daxil olmaqla, bu gün özlərini öndə hesab edən partiyaların hamısında zaman-zaman parçalanmalar baş verib

Hər dəfə də bu birliklər parçalananda müxalifət “liderləri” növbəti mərhələdə daha “uğurlu” bir format seçməyin vacibliyini bildiriblər. Lakin növbəti mərhələlərdə yaranan birliyin də aqibəti əvvəlkindən fərqlənməyib. Xüsusilə, “İctimai Palata” və “Milli Şura”nın aqibətləri göz qarşısındadır. Buna qədər də belə olub.

Məsələn, vaxtilə 6 partiyanın - Müsavat, AXCP, ADP, “Ümid”, ALP və “VİP” kimi partiyaların təsis etdikləri “Qarabağ və Respublika Uğrunda Hərəkat” da parçalanmaq təhlükəsindən yaxa qurtara bilməmişdi.

Ümumiyyətlə, buna qədər də baş verən hadisələrin təhlillərini apardığımız zaman, reallıq onu göstərir ki, birliklərin parçalanmasından öncə, orada cəmləşən partiyaların özlərinin daxilində baş verən qarşıdurmalara diqqət yetirmək lazımdır. Müsavat və AXCP də daxil olmaqla, bu gün özlərini öndə hesab edən partiyaların hamısında zaman-zaman parçalanmalar baş verib.

### Blokların birliyini təmin etmək üçün xalq faktorundan dəstək yoxdur

Bunun isə səbəbləri çoxdur. Amma bunu təkcə şəxsi ambisiyalara, yaxud da iqtidar tərəfindən edilən təzyiqlərə və demokratik təcrübənin az olması ilə də izah etmək olmaz.

Düzdür, bu amillər də var və bunların hər biri real elementlərdir. Ancaq əsas odur ki, bu partiyaların və blokların birliyini təmin etmək üçün xalqın dəstəyi yoxdur. Bu isə, onunla nəticələnir ki, müxtəlif dönəmlərdə situativ, müxtəlif təzyiqlər qarşısında hansısa məqsədlər - seçkilərdə iştirak üçün yaranan birliklər, qısa müddətdən sonra, yəni həmin məqsəd başa çatandan sonra pozulur. Baş verənləri isə, qısa şəkildə, məhz belə təhlil etmək olar - siyasətdə daimi dost və daimi düşmən anlayışı olmasa da, dağıdıcı düşərgədə bu amil qəbulolunmazdır. Yəni “dost” kimi görünüb, düşmən kimi ayrılmaq... “

**Rövşən NURƏDDİNOĞLU**

# İnsan hüquq və azadlıqlarının müdafiəsi

***Milli və ümumbəşəriliyin vəhdətini özündə əks etdirən Azərbaycan Konstitusiyası dünyanın bütün demokratik ölkələrinin təcrübəsinə əsaslanmaqla yanaşı, həm də milli xüsusiyyətləri də nəzərə almışdır. Ulu Öndər Heydər Əliyev hələ konstitusiya layihəsinin hazırlanması zamanı bu cəhətləri xüsusi diqqətdə saxlayırdı: “Biz elə bir layihə hazırlamalı və nəhayət, elə bir konstitusiya qəbul etməliyik ki, o müstəqil Azərbaycan Respublikasında demokratik prinsiplə, əsasında uzun müddət sabit yaşamasını təmin edən əsas qanun, tarixi sənəd olsun. Hakimiyyət bölgüsü - ali icra, qanunvericilik, məhkəmə hakimiyyəti - bunlar hamısı xalqın iradəsinə söykənməli, seçkilər yolu ilə təmin olunmalıdır”.***

Azərbaycan Respublikasının Konstitusiyasında öz əksini tapan hüquq və azadlıqların demokratik konvensiyasını dünyanın qabaqcıl ölkələrinin konstitusiyaları ilə müqayisə edək. ABŞ Konstitusiyasında insan hüquq və azadlıqlarına liberal münasibət öz əksini tapıb. ABŞ Konstitusiyasının “Hüquqlar haqqında Bill”inə görə, ABŞ Konstitusiyasında dəyişikliklər edilmişdir. Hələ 1791-ci ildə ABŞ Konqresi tərəfindən ratifikasiya edilmiş sənədə əsasən, 7 düzəliş, bilavasitə insan hüquq və azadlıqlarına aiddir. Almaniya Konstitusiyasında göstərilir ki, insanın şərəf və ləyaqəti toxunulmazdır. Bu ölkənin əsas qanununda vətəndaşların şəxsi, siyasi hüquq və azadlıqları ilə yanaşı, geniş sosial-iqtisadi və sosial-mədəni hüquqları da təsbit olunmuşdur. Fransa Konstitusiyasında insan hüquq və azadlıqlarının müdafiəsinə Konstitusiya Şurası nəzarət edir. Fransada digər nəzarət formaları vətəndaşların şikayətləri və digər yurisdiksiyalı orqanlar tərəfindən həyata keçirilən nəzarət formaları mövcuddur. Yaponiya Konstitusiyasında əsas yeri insanların təbii hüquqlar konstitusiyası dövlət tərəfindən təminat verilməsi şəxsiyyətinin hüquq və azadlıqlarının həyata keçirilməsi cəmiyyətin rolu ilə əlaqələndirilir. Yaponiya Konstitusiyasında ənənəvi siyasi hüquqlarla yanaşı (seçki hüququ, birləşmə hüququ, yığıncaqlar, söz, mətbuat azadlığı və s.) digər siyasi hüquqlar da təsbit olunur. Yaponiya Konstitusiyası internet saytda göstərilir ki, xalqın, dövlətin vəzifəsi şəxslərini seçmək və onları vəzifədən kənarlaşdırmaq hüququ, dinc petisiyalarla müraciət etmək, qanunlarda düzəliş etmək və onların ləğv etmək hüququ, yaşamaq hüququ, digər şəxsi azadlıqlarla təminat verilir. Burada azadlıq və xoşbəxliyə can atmaq, vicdan azadlığı hüququ, dövlətin və vəzifəli şəxslərin qanunsuz hərəkətlərindən zərərin ödənilməsi hüququ və s. digər şəxsi hüquqlar təsbit edilir.

Beləliklə, Azərbaycan Respublikası Konstitusiyası özündə dünya və ölkə təcrübəsini əks etdirərək islahatlar yolu ilə onu daha da təkmilləşdirir. Əli Hüsunli haqlı olaraq yazır: “Konstitusiyanın qəbulu yalnız yeni ictimai sistemin hüquqi tanınmasını təsdiq edən fakt deyil, ölkəmizin inkişafının prinsipcə yeni mərhələyə qədəm qoymasının göstəricisi idi. Bu mərhələ isə, ilk növbədə, siyasi sistemin mərkəzində insanın və vətəndaşın, onun hüquq və azadlıqlarının, demokratik və hüquqi dövlət ideallarının durması ilə səciyyələnir. Ulu Öndərin müəllifi olduğu Konstitusiyanın qəbul edilməsi xalqımızın dövlət müstəqilliyi tarixində konstitusionalizm məfkurəsinin qəti qələbəsini əks etdirən hadisə idi”.

İlham Əliyev Cənablarının həyata keçirdiyi möhtəşəm islahatlar nəticəsində aşağıdakı istiqamətlərdə böyük, əzəmətli uğurlar əldə olunmuşdur:

Demokratik vətəndvş cəmiyyəti, hüquqi ıə dünyəvi dövlət quruculuğu konstitusiyası;

Bazar münasibətlərinə əsaslanan güclü iqtisadiyyat;

Balanslaşdırılmış xarici siyasət;

Azərbaycanın milli təhlükəsizliyinin sabitliyinin, milli birliyinin təmin edilməsi;

Azərbaycançılıq məfkurəsinə əsaslanan milli-mənəvi dəyərlər, tolerantlıq, multikulturalizmin keçirilməsi;

İnsan hüquq və azadlıqlarının, humanizm prinsiplərinin ali dəyərlər kimi qorunması;

Konstitusiya nəzarət institutunun gücləndirilməsi;

Sülh, əmin-amanlıq, dinc yanaşı yaşamaq prinsipləri;

Sosial mənafeyinin yüksək quruculuğu, insanın mənafeyinin yüksək tutulması;

Konstitusiya qanunlarının möhkəmləndirilməsi bugünkü Azərbaycan reallıqlarını səciyyələndirən əsas amillərə çevrilmişdir.

Bu gün Azərbaycanda Konstitusiya İslahatları insan hüquq və azadlıqlarının yeni şəraitdə təkmilləşdirilməsi üçün zəruri tələb və sosial sifarişin təzahür forması kimi özünü göstərir. Əli Hüseynli, haqlı olaraq qeyd edir ki, “Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dövlət idarəetməsinin cəmiyyət üzvlərinin maraqları çərçivəsində həyata keçirilməsinin təmin olunması istiqamətində prinsipial addımların atılması xüsusi nəzarətdə saxlayır.

Azərbaycanda həyata keçirilən inzibati islahatların başlıca hədəfi idarəetmənin cəmiyyətin gözləntilərinə cavab verməsini təmin etməkdən ibarətdir”.



“Azərbaycan dövləti sosial dövlətdir, çünki siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Bu gün də belədir, gələcəkdə də belə olacaqdır”, “Bizim bütün işimizin mərkəzində, təməlində Azərbaycan vətəndaşı dayanır və Azərbaycan vətəndaşının rahat rifah içində yaşaması bizim başlıca borcumuzdur” fikirlərinin müəllifi olan Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev dövlət siyasətinin təməlində vətəndaş mövqeyinin əhəmiyyətini vurğulamaqla, cəmiyyətdə hər bir vətəndaşın, hər bir insanın qənaətə gəldiyi rəyə dövlətin münasibətinin hiss edilməsini bildirmişdir. “Ümumiyyətlə, Azərbaycanda dövlətçiliyin güclənməsini cəmiyyətin və xalqın yüksək inkişafının təmin edilməsinə yönəlmiş təşəbbüs hesab etmək olar. Azərbaycan Respublikasında islahatların başlıca istiqamətini cəmiyyət üzvlərinin maraqlarına cavab verən, onların istək və tələblərini dəqiqliklə nəzərə ala bilən dövlət-idarəetmə sisteminin yaradılması təşkil edir. Vətəndaşlara göstərilən dövlət xidmətinin keyfiyyətinin yüksəldilməsi istiqamətində kompleks tədbirlərin həyata keçirilməsi də demokratik islahatların vacib istiqamətlərindən birini təşkil edir”.

Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev Konstitusiya Günü münasibətilə Azərbaycan xalqına müraciətində ölkədə qanunvericiliyin təkmilləşdirilməsi sahəsində qazanılan uğurlar haqqında belə demişdir: “Keçən illər ərzində konstitusiya humanist, dinamik və realist bir sənəd olduğunu sübut etmişdir. Onun əhatə etdiyi bütün sahələrdə hüquqi dövlət quruculuğu, bazar iqtisadiyyatı prinsiplərinin tətbiqi, siyasi həyatın demokratikləşdirilməsi, insan haqlarının və azadlıqlarının təmin olunması və sair ilə bağlı mühüm irəliləyişlər baş verir. Ölkəmizdə demokratik prinsiplər və dəyərlər, insan hüquq və azadlıqları getdikcə daha dolğun və real məzmun kəsb edir, vətəndaşların milli mexanizmləri təkmilləşdirilir, bu sahədə beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlıq həyata keçirilir”.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev insan hüquq və azadlıqlarının müdafiəsi üçün mühüm islahatlar aparır:

Hakimiyyətin bugunkü sistemində mühüm yer tutan məhkəmə hakimiyyəti gücləndirilir, qanunun aliliyi reallığa çevrilir;

İnformasiya sahəsində ciddi tədbirlər görülür;

Dövlət, şəxsiyyət və cəmiyyətin qarşılıqlı münasibətləri daha da möhkəmləndirilir;

Seçmək və seçilmək hüququnun demokratikliyinin gücləndirilməsi həyata keçirilir. Təkcə 2016-cı ildə ölkə Prezidenti İlham Əliyevin Sərəncamı ilə aşağıdakı islahatlar reallaşdı: “Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında” “Azərbaycan Respublikasının Referendum Aktının layihəsinin Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə göndərilməsi barədə” Sərəncam Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi məqsədi ilə ümumxalq səsverməsi (referendum) keçirilməsi haqqında” 2016-cı il 26 iyul tarixli Sərəncamı.

**Vahid ÖMƏROV,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə “İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması” istiqaməti çərçivəsində hazırlanıb*

# səs



## *Bu bitki qanda xolesterinin miqdarını normaya salır*



Laminariya və ya dəniz kələmi boz-qonur rəngli dəniz yosunları sinfinə daxildir, qədim Şərq yosunu hesab edilən bitki dəniz sahilində yaşayanların qidası olub. Tərkibində külli miqdarda makro və mikroelement olduğuna görə ondan gübrə kimi də istifadə edilib. Əsasən Yapon və Oxot dənizlərinin sahilində bitir. Dəniz kələmi Yaponiya, Çin və Koreya mətbəxinin əsas qidası hesab edilir. Yaponlar demək olar ki, hər gün dəniz kələmindən istifadə edirlər. Məşhur yapon yeməyi olan suşiləri qurudulmuş laminariya məhsullarından hazırlanır.

Dəniz kələmi sinir sisteminin işini, maddələr mübadiləsini yaxşılaşdırır, fiziki və zehni fəallığı yüksəldir, qanda xolesterinin miqdarını normaya salır. Atonik qəbizlik, kəskin entrekolit, proktit və qanazlığı zamanı da ondan istifadə etmək olar. Onun tərkibinə daxil olan bir çox maddələr afrodiziak təsirə malikdir və impotensiyanın müalicəsində istifadə edilir.

Artıq çəkidən əziyyət çəkənlər üçün də laminariya əlverişli məhsuludur, çünki uzun müddət doyma hissi yaradır və orqanizmdə olan artıq mayeni özünə hopdurur, tərkibindəki vacib vitamin və elementlər isə orqanizmin gündəlik tələbatını ödəyir.

Dəniz kələmi salat və qarnir şəklində də yeyilir. Onun tərkibində qalxanabənzər vəz hormonunun bitki analoqu olan tireoidin var və həmin maddə qalxanabənzər vəzin pozulmuş fəaliyyətini normalaşdırır.

Kosmetologiyada laminariya bürünmə məqsədilə istifadə edilir. Onda sellülitin qarşısını almaq, mimik qırışları hamarlamaq qabiliyyəti var, lakin onun həddən artıq istifadə edilməsi zökəmə və göz yaşı ifrazının artmasına səbəb ola bilər.

### Elan

Azərbaycan Dəniz Administrasiyası tərəfindən Musayev Ruslan Habil oğluna verilmiş şəxsiyyət sənədi itdiyi üçün etibarsız sayılır.

* * *

Azərbaycan Dövlət Dəniz Akademiyası tərəfindən Həmidov Ceyhun Soltan oğlunun adına verilmiş (NBJS) sertifikat itdiyi üçün etibarsız sayılır.

* * *

Türkan qəsəbə Bələdiyyəsinin ərazisində Ağayev Elşən Allahverdi oğlunun adına verilmiş 10 sot torpağın sənədləri itdiyi üçün etibarsız sayılır.

* * *

Türkan qəsəbə Bələdiyyəsinin ərazisində Nəsirova Zərifə Adıgözəl qızının adına verilmiş 10 sot torpağın sənədləri itdiyi üçün etibarsız sayılır.

* * *

M.Ə.Rəsulzadə qəsəbəsi, 12-ci sıra, ev 12-də yaşayan Namazov Məhərrəm Mustafa oğlunun adına verilmiş MA 0385339 nömrəli reyestrdən çıxarış itdiyi üçün etibarsız sayılır.

* * *

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Filologiya fakültəsinin I kurs tələbəsi Ələsgərova Əntiqə Eldar qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

* * *

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Kimya-biologiya fakültəsinin III kurs tələbəsi Həsənli Seyidbəyim Miryaqub qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

* * *

Daxili İşlər Nazirliyi Baş Dövlət Yol Polisi tərəfindən Feyzullayev Vüqar Bayraməli oğlunun adına verilən sürücülük vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

## Azərbaycan millisi San-Marino və Çexiya yığmalarını Bakı Olimpiya Stadionunda qəbul edəcək




Futbol üzrə Azərbaycan milli komandasının dünya çempionatının seçmə mərhələsində keçirəcəyi daha iki ev oyununun stadionu müəyyənləşib. AZƏRTAC AFFA-ya istinadla xəbər verir ki, millimiz sentyabrın 4-də San-Marino yığmasını və oktyabrın 5-də Çexiya komandasını Bakı Olimpiya Stadionunda qəbul edəcək.

## Mourinyo Mançesterdə harda qalıb?



"Mançester Yunayted"in baş məşqçisi Joze Mourinyo haqda maraqlı fakt ortaya çıxıb. Qol.az-ın Britaniyanın "The Sun" qəzetinə istinadən yaydığı xəbərə görə, portuqaliyalı mütəxəssis Mançesterdə nə ev alıb, nə də icarəyə götürüb. O, bir il 5 ulduzlu otellərdən birində qalıb. Mourinyo qaldığı oteldə hər gecəsi üçün 411 funt sterlinq (təqribən 524 dollar) ödəyib. Mourinyo bir il ərzində oteldə qalmağı üçün 150 min funt sterlinq (təqribən 191 min dollar) xərcləyib. Qeyd edək ki, 54 yaşlı mütəxəssi ötən ilin may ayından "MY"ni çalışdırır.



## Əmrə Mor "Liverpul"da?

Dortmund "Borussiya"sının türk futbolçusu Əmrə Mor karyerasını "Liverpul"da davam etdirə bilər. Qol.az-ın "Bild" qəzetinə istinadən yaydığı xəbərə görə, "Liverpul"un baş məşqçisi Yürgen Klopp sabiq futbolçusunu öz komandasında görmək istəyir. "Liverpul"un 19 yaşlı yarımmüdafiəçini icarə əsasında heyətə cəlb edəcəyi bildirilir. Qeyd edək ki, Ə. Morun Almaniya klubu ilə 2021-ci ilə qədər müqaviləsi var.

## "Zirə" klubu PSJ-nin yetirməsini heyətinə cəlb edib

Avropa Liqasının təsnifat mərhələsinə hazırlaşan "Zirə" klubu daha bir futbolçu ilə gücləndi. AZƏRTAC kluba istinadla xəbər verir ki, mərkəzi afrikalı David Manqa "qartallar"ın sıralarına qoşulub. Hücumameyilli yarımmüdafiəçi ilə 2 illik müqavilə imzalanıb. İyirmi səkkiz yaşlı David Manqa Fransanın PSJ klubunun yetirməsidir. Futbolçu karyerası ərzində Almaniya, İsrail və Serbiyada da çıxış edib. Manqanın son klubu İsrailin "Hapoel Aşkelon" komandası olub. David 2010-cu ildən Mərkəzi Afrika Respublikasının yığma komandasında çıxış edir.

## "Mançester Yunayted" İbrahimoviçlə müqavilə uzatmaqdan imtina etdi!



"Mançester Yunayted" Zlatan İbrahimoviçlə müqavilə uzatmaqdan imtina edib. Bu barədə "SKY Sports" xəbər yayıb. Bildirlib ki, "manukunianlar" isveçli ilə əməkdaşlığı davam etdirməkdə deyil. Buna səbəb İbranın sağ ayağında xaçvari bağların qırılmasıdır. Zədə səbəbindən 8-9 ay yaşıl meydanlardan kənarda qalacaq oyunçu özü də Mançesterə qayıtmaq istəmir. Qeyd edək ki, ötən mövsümün əvvəlində "qırmızı şeytanlar"la anlaşan İbrahimoviç bir illik müqavilə imzalamışdı.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

*Buraxılışa məsul: Mətləb Salahov*
Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in kompüter mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**